**«Təsdiq edilmişdir»**
**"Bakı Fond Birjası" QSC-nin**
**İdarə Heyəti**
**Protokol № 08**
**"30" dekabr 2015-ci il**

**Sədr _______________ F.Əzizov**

# BAKI FOND BİRJASINADA QİYMƏTLİ KAĞIZLAR VƏ TÖRƏMƏ MALİYYƏ ALƏTLƏRİ ÜZRƏ TİCARƏTİN TƏŞKİLİ VƏ KEÇİRİLMƏSİ QAYDALARI

## I HİSSƏ: ÜMUMİ MÜDDƏALAR

### Maddə 1

### QAYDALARIN MƏQSƏDİ VƏ TƏTBİQİ DAİRƏSİ

1.1. Bu Qaydalar Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, "Qiymətli Kağızlar Bazarı haqqında Qanun"a və Azərbaycan Respublikası Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi (bundan sonra - QKDK) tərəfindən qəbul edilmiş normativ-hüquqi aktlara, "Bakı Fond Birjası" QSC-nin (bundan sonra - Birja) nizamnaməsi, daxili qaydalarına uyğun hazırlanmışdır.

1.2. Bu Qaydalar "Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyətində (bundan sonra – Birja) qiymətli kağızlarla və törəmə maliyyə alətləri ilə ticarətin təşkili, keçirilməsi və tənzimlənməsi qaydalarını müəyyən edir.

### Maddə 2

### ƏSAS ANLAYIŞLAR

2.1 Bu Qaydaların məqsədlərinə görə onda istifadə edilən əsas anlayışlar aşağıdakı mənaları ifadə edəcəkdir:

2.1.1. **Birja üzvü -** Müraciət əsasında Birjanın daxili qaydalarına uyğun olaraq Birja ticarətində bilavasitə iştirak etmək hüququna malik olan, öz adından öz hesabına və öz adından müştərilərinin hesabına fond birjasında ticarətdə iştirak etmək üçün qanunvericiliyə

müvafiq olaraq QKDK tərəfindən müvafiq lisenziyaya sahib olan investisiya şirkətidir. Birja üzvləri hüquqi şəxslərdir;

2.1.2. **Səlahiyyətli treyder** – Birja üzvünün işçisi olub, QKDK tərəfindən verilmiş müvafiq ixtisas şəhadətnaməsinə malik olan, ticarət iştirakçısının adından Birjada sifarişlərin elan edilməsi və əqdlərin həyata keçirilməsi üçün səlahiyyət verilmiş Akkreditə şəhadətnaməsinə malik şəxsdir;

2.1.3. **Ticarət sistemi -** Birjanın proqram təminatı, verilənlər bazası, telekommunikasiya sistemləri və digər avadanlıqlarından ibarət olmaqla, həm bilavasitə birjanın ticarət zalında, həm də ondan kənarda (daxil olmaq üçün terminal vasitəsi ilə) birja əməliyyatları və əqdlərinin həyata keçirilməsi üçün zəruri olan məlumatları təmin etmək, saxlamaq, işləmək və açıqlamaq imkanı verən proqram təminatı və kompüter şəbəkə sistemidir;

2.1.4. **Listinq qiyməti (ilkin ticarət qiyməti)** – Birjada listinqdən keçmiş qiymətli kağızların ilk dəfə olaraq ticarətə buraxıldığı qiymətdir. Listinq qiyməti (ilkin ticarət qiyməti) aşağıdakı qaydada təyin olunur:
a) qiymətli kağızların kütləvi təklif olunduğu qiymət;
b) qiymətli kağızlar digər tənzimlənən bazarda listinqdə olduqda, onların bu bazarda ticarət olunduğu qiymət (manat ekvivalentində);
c) bu bəndin "a" və ya "b" yarımbəndlərinə müvafiq olaraq, qiymətli kağızların ilkin ticarət qiymətini təyin etmək mümkün olmadıqda, bu qiymət qiymətli kağızların listinqə daxil edilməsi üçün müraciət etmiş şəxs tərəfindən təyin edilir.

2.1.5. **İstinad qiyməti** – Birjada ticarətə buraxılmış qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə bu Qaydaların 6-cı bəndi ilə müəyyən edilən qiymətdir;

2.1.6. **Orta çəkili qiymət** – Ünvanlı əqdlər istisna olmaqla, Birjada ticarətə buraxılmış hər bir qiymətli kağız və törəmə maliyyə aləti üzrə müəyyən dövr ərzində bağlanılmış əqdlərin qiymətinin, bu əqdlərin bağlanıldığı qiymətli kağız və törəmə maliyyə aləti üzrə ümumi əqdlərin həcmində çəkisini nəzərə almaqla hesablanan riyazi ortasıdır;

2.1.7. **Açılış qiyməti** – Ünvanlı əqdlər istisna olmaqla, ticarət günü ərzində Birjada ticarətə buraxılmış hər bir qiymətli kağız və törəmə maliyyə aləti üzrə bağlanılmış ilk əqdin qiymətidir. Ünvanlı əqdlər istisna olmaqla, ticarət günü ərzində hər hansı bir qiymətli kağız və ya törəmə maliyyə aləti üzrə əqd bağlanılmadıqda bu qiymətli kağız və ya törəmə maliyyə aləti üzrə açılış qiyməti təyin edilə bilməz;

2.1.8. **Bağlanış qiyməti** – Ünvanlı əqdlər istisna olmaqla, ticarət günü ərzində Birjada ticarətə buraxılmış hər bir qiymətli kağız və törəmə maliyyə aləti üzrə bağlanılmış sonuncu əqdin qiymətidir. Ünvanlı əqdlər istisna olmaqla, ticarət günü ərzində hər hansı bir qiymətli kağız və ya törəmə maliyyə aləti üzrə əqd bağlanılmadıqda bu qiymətli kağız və ya törəmə maliyyə aləti üzrə bağlanış qiyməti təyin edilə bilməz;

2.1.9. **Lot ölçüsü** – Bir sifarişdə göstərilə bilən qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin minimal sayıdır. Bütün sifarişlər bu Qaydalarla müəyyən edilmiş lot ölçüsündə təqdim edilir;

2.1.10. **Qiymət addımı** – Birjada ticarətə buraxılmış qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə Birja tərəfindən müəyyən edilmiş minimal qiymət dəyişikliyidir;

2.1.11. **Rəqabətli sifariş** – alınacaq istiqrazların qiymətini və miqdarını özündə əks etdirən istiqrazların hərrac qaydasında yerləşdirilməsi və geriyə alışı zamanı istifadə olunan istiqrazların emitentinin adından çıxış edən birja üzvünə ünvanlanmış bazar qiymətli sifarişdir;

2.1.12. **Qeyri-rəqabətli sifariş** – alınacaq istiqrazların məbləğini özündə əks etdirən istiqrazların hərrac qaydasında yerləşdirilməsi və geriyə alışı zamanı istifadə olunan istiqrazların emitentinin adından çıxış edən birja üzvünə ünvanlanmış bazar qiymətli sifarişdir;

2.1.13. **Sifarişlər kitabı** – Birjada ticarətə buraxılmış hər bir qiymətli kağız və törəmə maliyyə aləti üzrə ticarət sisteminə daxil edilmiş sifarişlərin və kotirovkaların sistemli şəkildə qeydiyyata alındığı və bu Qaydalara müvafiq olaraq vaxt və qiymət prinsipi ilə icra üçün sıralandığı, qeydiyyata alınmış sifarişlərin və kotirovkaların məcmu şəkildə və ayrı-ayrılıqda davamlı olaraq əks olunduğu elektron yazıların məcmusudur. Sifarişlər kitabında sifariş və ya kotirovkaları təqdim etmiş birja üzvü barədə məlumat qeyd olunmur. Ticarət iştirakçılarının sifarişlər kitabına çıxışı bu Qaydalara müvafiq şəkildə təmin edilir;

2.1.14. **Ən yaxşı qiymət** – Alış istiqamətli sifarişlər (kotirovkalar) üzrə ən yüksək alış qiyməti, satış istiqamətli sifarişlər (kotirovkalar) üzrə ən aşağı satış qiymətidir;

2.1.15. **Ticarət günü** – Birja tərəfindən qeyri-ticarət günü olaraq elan edilməmiş iş günüdür. Birjada ticarət xarici bazarlarda ticarət olunan baza aktivləri ilə təşkil olunduqda, ticarət günləri bu bazarlarda tətbiq edilən iş günləri olaraq qəbul edilir;

2.1.16. **Ticarət saatları** – Birjada ticarət günün ticarətin keçirildiyi hissəsidir;

2.1.17. **Ticarət təqvimi** – Ticarət və qeyri-ticarət günlərinin Birjanın İdarə Heyəti tərəfindən təsdiq edilən siyahısıdır;

2.1.18. **Ticarət reqlamenti** – Birjada ticarət saatlarını və ticarət fazalarının başlama və bitmə vaxtını əks etdirən Birjanın İdarə Heyəti tərəfindən təsdiq edilən sənəddir;

2.1.19. **Ticarət üsulu** – Birjanın ticarət sistemi vasitəsi ilə bu Qaydalara uyğun olaraq sifarişlərin uzlaşması yolu ilə əqdlərin bağlanılması üsuludur;

2.1.20. **Ticarət fazası** – ticarət üsulunu tətbiq etməklə ticarətin təşkil olunduğu ticarət reqlamenti ilə müəyyən edilən dövrdür;

2.1.21. **Fərdi identifikasiya kodu** – Birja tərəfindən ticarət iştirakçısına verilmiş, onu ticarət sistemində identifikasiya edən rəqəmlərdən ibarət (4 və ya 5 rəqəm) fərdi qısa koddur;

2.1.22. **Ticarət iştirakçısı** – Bu Qaydaların 4-cü bəndi ilə müəyyən olunmuş şəxslər;

2.1.23. **Marketmeyker** – qiymətli kağızlar bazarında mütəmadi olaraq öz hesabına və Birja ilə razılaşdırılmış qiymət dəhlizi çərçivəsində özünün müəyyənləşdirdiyi qiymətlərlə qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin alqı-satqısını həyata keçirən birja üzvüdür;

2.1.24. **Ünvanlı əqd -** Tərəfləri bir-birinə məlum olan və qabaqcadan razılaşdırılmış qiymətlə və şərtlərlə bağlanan qiymətli kağızların Birjada alqı-satqısıdır;

2.1.25. **Alış kotirovkası** – Birjanın ticarət sistemində bu Qaydaların şərtlərinə uyğun marketmeyker tərəfindən qiymətli kağızların alışı üzrə verilmiş limit qiymətli sifarişdir;

2.1.26. **Satış kotirovkası** – Birjanın ticarət sistemində bu Qaydaların şərtlərinə uyğun marketmeyker tərəfindən qiymətli kağızların satışı üzrə verilmiş limit qiymətli sifarişdir;

2.1.27. **Kotirovka spredi** – Market meykerin alış və satış qiymətlərini müəyyən edərkən əməl etməli olduğu, qiymətli kağızların cari qiymətinə nəzərən aşağı və yuxarı qiymət dalğalanması arasındakı fərqdir;

2.1.28. **Marketmeyker əqdi** – Birjanın daxili qaydalarına və ticarət reqlamentinə uyğun olaraq market-meyker sessiyası daxilində, ən azı bir tərəfdən market-meyker olmaqla bağlanan ticarət əqdləridir;

2.1.29. **Marketmeyker üzrə güzəştlər** – Birjanın qaydalarına uyğun olaraq marketmeyker əqdləri üzrə marketmeykerə tətbiq edilən güzəştlərdir;

2.1.30. **Minimal alış həcmi** – marketmeykerin gün ərzində Birjanın ticarət sistemində marketmeyker sessiyası başlayan zaman təqdim etməli olduğu alış sifarişinin minimal məbləğidir (alış qiyməti * qiymətli kağızların sayı ≥ minimal alış həcmi). Marketmeyker ona ünvanlanmış satış sifarişlərinin yalnız minimal alış həcmi qədərində olan hissəsinin alınmasına öhdəlik daşıyır;

2.1.31. **Kross əqd** – Birja üzvünün eyni bir əqd üzrə həm alıcı, həm də satıcı qismində çıxış etdiyi əqdlərdir;

2.1.32. **Kross sifariş** – Birjanın ticarət sistemində sifarişlərin reyestrinə daxil edildiyi zaman kross əqdin bağlanılmasına səbəb ola biləcək sifarişdir;
2.1.33. **Gözləmə müddəti** – bazarda rəqabət mühitinin formalaşdırılması məqsədi ilə kross sifarişlərin digər birja üzvlərinə açıqlanması və onların kross əqdlərdə iştirakının təmin edilməsi üçün kross sifarişlərin bloklaşdırılması müddətidir;

2.1.34. **Repo əməliyyatı (repo müqaviləsi)** – Repo predmeti olan investisiya qiymətli kağızlarının əvvəlcədən müəyyən edilmiş şərtlərlə geri satın alınması (satılması) öhdəliyi ilə satılmasıdır (alınmasıdır);

2.1.35. **Repo açılış əqdi** – Repo əməliyyatının birinci hissəsi olmaqla, investisiya qiymətli kağızların satılması (alınması) üzrə Birjanın ticarət sistemində bağlanılmış əqddir;

2.1.36. **Repo bağlanış əqdi** – Repo əməliyyatının ikinci hissəsi olmaqla, investisiya qiymətli kağızlarının geri satın alınması (satılması) üzrə Birjanın ticarət sistemində bağlanılmış əqddir;

2.1.37. **Repo açılış əqdinin qiyməti** – Repo açılış əqdinin bu Qaydalara uyğun olaraq Birja tərəfindən hesablanmış qiymətdir;

2.1.38. **Repo bağlanış əqdinin qiyməti** – Repo bağlanış əqdinin bu Qaydalara uyğun olaraq Birja tərəfindən hesablanmış qiymətdir;

2.1.39. **Repo əməliyyatının iştirakçısı** – Birja və klirinq təşkilatı ilə Repo Baş Razılaşmasını imzalamış Birja üzvüdür;

2.1.40. **Repo alıcısı** – Repo açılış əqdi zamanı qiymətli kağızların alıcısı qismində, Repo bağlanış əqdi zamanı qiymətli kağızların satıcısı qismində çıxış edən Repo əməliyyatının iştirakçısıdır;

2.1.41. **Repo satıcısı** – Repo açılış əqdi zamanı qiymətli kağızların satıcısı qismində, Repo bağlanış əqdi zamanı qiymətli kağızların alıcısı qismində çıxış edən Repo əməliyyatının iştirakçısıdır;

2.1.42. **Reponun predmeti (repo baza aktivi)** – Üzərində Repo əməliyyatı aparılması üçün müəyyən olunmuş Birjada ticarətə buraxılmış bir buraxılış daxilində olan investisiya qiymətli kağızlarıdır;

2.1.43. **Repo müddəti** – Repo açılış əqdi tarixi ilə Repo bağlanış əqdi tarixi arasındakı müddətdir;

2.1.44. **Repo faiz dərəcəsi** – bu Qaydalara uyğun olaraq hesablanmış Repo əməliyyatının gəlirliliyidir;

2.1.45. **Repo Baş Razılaşması** – Repo əməliyyatlarının aparılmasının əsas şərtlərini, tərəflərin hüquq və vəzifələrini, məsuliyyətini müəyyənləşdirən Birja və Birja üzvü olan investisiya şirkətləri arasında və klirinq təşkilatının iştirakı ilə bağlanılan müqavilədir;

2.1.46. **Reponun açılma tarixi** – Repo satıcısı tərəfindən qiymətli kağızların Repo alıcısına satıldığı və Repo alıcısı tərəfindən onların alındığı tarixdir;

2.1.47. **Reponun bağlanma tarixi** – Repo satıcısı tərəfindən qiymətli kağızların Repo alıcısından geri satın alındığı və Repo alıcısı tərəfindən onların geri satıldığı tarixdir;

2.1.48. **Repo şəhadətnaməsi** – Repo əməliyyatının həyata keçirildiyini rəsmiləşdirən və Repo iştirakçılarının Repo əməliyyatı üzrə öhdəliklərini Repo Baş Razılaşmasına uyğun olaraq təsdiq edən sənəddir.

2.1.49. **Marja ticarəti** – Marja ticarəti investora Birja üzvləri vasitəsi ilə baza aktivi (qiymətli kağız, valyuta, faiz dərəcələri, gəlirlilik, törəmə maliyyə alətləri, əmtəə, maliyyə indeksi, kredit riskləri və s.) və ya bu baza aktivlərinin qiyməti, gəlirliliyi, məzənnə fərqi, risk dərəcəsinin öz vəsaiti və ya borc vəsaitləri ilə Birjada alınıb sonradan satılmasının təşkili üzrə investisiya xidmətidir (əməliyyatıdır);

2.1.50. **Marja ticarəti üzrə baza aktivi** – qiymətli kağız, valyuta, faiz dərəcələri, gəlirlilik, törəmə maliyyə alətləri, əmtəə, maliyyə indeksi, kredit riskləri və ya bu aktivlərin qiyməti, gəlirliliyi, məzənnə fərqi, risk dərəcəsinin öz vəsaiti və ya borc vəsaitləridir;

2.1.51. **İlkin marja** – baza aktivinin alışı məqsədilə müştəri tərəfindən investisiya şirkətinə nəğd ödənilən əməliyyat dəyərinin faiz nisbəti kimi hesablanan minimum məbləğdir;

2.1.52. **Təminat marjası** – baza aktivinin alışından sonra müştəri tərəfindən investisiya şirkətinə ödənilən və ticarət gününün sonuna yekun qiymətə uyğun olaraq baza aktivinin bazar dəyərinin faiz nisbəti kimi hesablanan minimum məbləğdir;

2.1.53. **Marja çağırışı** – bu Qaydalarla müəyyən edilmiş təminat marjasının minimum həddinə çatdırılması məqsədilə əlavə pul vəsaitinin qoyulması barədə investisiya şirkəti tərəfindən müştəriyə edilən tələbdir;

2.1.54. **Cari bazar dəyəri (cari qiymət)** – qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin, habelə marja ticarəti üzrə baza aktivinin, listinqdən keçdiyi əsas Birjanın kotirovkasına əsasən son ana müəyyən olunan qiymətidir;

2.1.55. **Klirinq** – Klirinq fəaliyyəti qiymətli kağızlarla və ya törəmə maliyyə alətləri ilə əqdlər üzrə qarşılıqlı öhdəliklərin müəyyən edilməsi məqsədi ilə məlumatların toplanması, yoxlanılması, tutuşdurulması, mövqelərin nettinqi, öhdəliklərin sıralanması, tələblərin əvəzləşdirilməsi üzrə fəaliyyətdir;

2.1.56. **Klirinq təşkilatı** – Klirinq təşkilatı müstəsna olaraq klirinq fəaliyyəti ilə məşğul olan, bu fəaliyyət növü üzrə lisenziyaya malik olan və səhmdar cəmiyyəti formasında yaradılan hüquqi şəxsdir;

2.1.57. **Hesablaşmalar** – qiymətli kağızlarla və ya törəmə maliyyə alətləri ilə əqdlər üzrə tərəflərin qarşılıqlı öhdəliklərinin icra edilməsidir;

2.1.58. **Ödənişə Qarşı Çatdırılma (ÖQÇ)** – qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin alış qiymətinin tam ödənilməsi qarşılığında satıcının alıcıya və ya onun nümayəndəsinə bu qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin çatdırılmasının təmin edilməsi üzrə razılaşmanı ifadə edən hesablaşma prinsipidir;

2.1.59. **Ticarət simvolu (tiker)** – Birjada ticarətə buraxılan hər bir qiymətli kağız və törəmə maliyyə alətini ticarət sistemində identifikasiya edən qısa koddur;

2.1.60. **Qlobal əməliyyatlar** - Qiymətli kağızların birləşdirilməsi, konvertasiyası, xırdalanması, habelə, qanunvericiliklə müəyyən edilmiş digər əməliyyatlar;

2.1.61. **Korporativ hadisələr** - Qiymətli kağızları buraxmış səhmdar cəmiyyəti tərəfindən səhmdarların ümumi yığıncaqlarının keçirilməsi, səhmlər üzrə dividendlərin verilməsi, istiqrazlar üzrə faizlərin ödənilməsi və qanunvericiliklə müəyyən edilmiş digər hadisələr.

## II HİSSƏ: ƏSAS MÜDDƏALAR

### Maddə 3

### BİRJANIN TƏŞKİL ETDİYİ BAZARLAR, TİCARƏT İŞTİRAKÇILARI

3. Birja aşağıdakı bazarların ticarətini təşkil edir:

3.1. Dövlət qiymətli kağızlarının bazarı;
3.2. Korporativ qiymətli kağızların bazarı;
3.3. Törəmə maliyyə alətlərinin bazarı.

4. Aşağıdakılar Birjanın təşkil etdiyi bazarlarda ticarətdə iştirak edə bilər:

4.1. Birjanın üzvlük qaydalarına əsasən birja üzvlüyünə qəbul edilmiş və müvafiq bazarda ticarət etmək səlahiyyətlərinə malik investisiya şirkətləri;
4.2. Müstəsna olaraq, Azərbaycan Respublikasının Mərkəzi Bankı birja üzvü olmadan ticarət iştirakçısı qismində birjada ticarətdə iştirak edə bilər.

4.3. Birjada ticarət birja üzvləri olan investisiya şirkətləri vasitəsi ilə həyata keçirilir.

### Maddə 4

### ƏQDLƏRİN BAĞLANILMASI, İSTİNAD QİYMƏTİ, QİYMƏT DƏHLİZİ, TİCARƏTİN DAYANDIRILMASI, TİCARƏT GÜNLƏRİ, TİCARƏT SAATLARI, QİYMƏT ADDIMI VƏ LOT ÖLÇÜSÜ, BAZARA NƏZARƏT VƏ TİCARƏT OLUNAN BAZARLARIN QORUNMASI

**5. Birjada əqdlərin bağlanılması**

5.1. Birjada əqdlər aşağıdakı şərtlər daxilində bağlanılır:

5.1.1. Əqdin hər iki tərəfi birjanın ticarət sistemində bu Qaydalara müvafiq şəkildə bir-birinə uyğun şərtlərlə sifariş daxil etdikdə;

5.1.2. Əqdlər birjanın ticarət sistemi vasitəsi ilə, bu Qaydalarda nəzərdə tutulmuş müvafiq ticarət üsulu vasitəsilə bağlanıldıqda.

5.2. Hər bir əqd üzrə aşağıdakı məlumatlar ticarət sistemi vasitəsi ilə ticarət iştirakçılarına bu qaydalara uyğun olaraq açıqlanır:

5.2.1. Əqdin bağlanıldığı qiymətli kağızın və ya törəmə maliyyə alətinin adı;

5.2.2. Qiymətli kağızların və ya törəmə maliyyə alətinin miqdarı;

5.2.3. Bir lot qiymətli kağızın və ya törəmə maliyyə alətinin qiyməti;

5.2.4. Əqdin tərəfləri olan birja üzvləri.

5.3. Birjada əqd elektron ticarət sistemi (sistemləri) vasitəsi ilə bağlanılır.

**6. İstinad qiyməti**

6.1. Birjada istinad qiyməti aşağıdakı qaydada müəyyən edilir:

6.1.1. İstinad qiyməti qiymətli kağızlar üzrə ticarətin baş verdiyi ən son ticarət günü ərzində bağlanılmış əqdlərin (Birjada bağlanılmış ünvanlı əqdlər və yerləşdirilmə üzrə əqdlər istisna olmaqla) orta çəkili qiymətidir;

6.1.2. Qiymətli kağızlar ilk dəfə ticarətə buraxıldıqda, istinad qiyməti bu qiymətli kağızların birjanın listinq qaydaları ilə müəyyən edilmiş listinq qiymətidir;

6.2. Birjada hərrac qaydasında yerləşdirilmiş investisiya qiymətli kağızları ilk dəfə təkrar bazarda tədavülə buraxıldıqda, istinad qiyməti bu qiymətli kağızların yerləşdirilməsi zamanı təyin edilmiş orta çəkili qiymət olaraq müəyyən edilir.

6.3. Birjanın İdarə Heyəti bazarın qorunması məqsədi ilə qiymətli kağızlarla qlobal əməliyyatlar və korporativ hadisələr zamanı istinad qiymətini dəyişə və ya ləğv edə bilər.

**7. Qiymət dəhlizi**

7.1. Birjada ticarətə buraxılmış qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə sifarişlər və kotirovkalar aşağıdakı qaydada müəyyən edilmiş qiymət dəhlizi çərçivəsində olmalıdır:
7.1.1. Qiymət dəhlizinin yuxarı həddi bu Qaydalara uyğun olaraq təyin edilmiş istinad qiymətindən 20% yuxarı olaraq müəyyən edilir;
7.1.2. Qiymət dəhlizinin aşağı həddi bu Qaydalara uyğun olaraq təyin edilmiş istinad qiymətindən 20% aşağı olaraq müəyyən edilir.

7.2. Təqdim edilən sifarişlərin və kotirovkaların qiyməti qiymət dəhlizindən kənarda olduqda, bu sifarişlər və kotirovkalar ticarət sistemi tərəfindən rədd edilir və ticarət üçün qeydiyyata alınmır.
7.3. Qiymətli kağızlar ticarətə buraxıldıqdan sonra və ya bu qiymətli kağızlar üzrə son bağlanış qiyməti təyin edildikdən sonra onlarla 30 (otuz) ticarət günü ərzində əqd bağlanılmadıqda (ünvanlı əqdlər istisna olmaqa), qiymət dəhlizinin yuxarı və aşağı həddi bu qaydalara əsasən yeni istinad qiymətinin təyin olunmasınadək tətbiq edilmir.

7.4. Birjada ticarətə buraxılmış törəmə maliyyə alətləri üzrə bu Qaydaların 7.1.1. və 7.1.2.-ci bəndi ilə nəzərdə tutulmuş qiymət dəhlizindən daha aşağı dəhliz həddi müəyyən edilə bilər. Bu zaman dəhliz həddi bu Qaydaların 56.2-ci bəndinə müvafiq törəmə maliyyə alətlərinin standartlaşdırılmış formasında qeyd edilir.

**8. Ticarətin dayandırılması**

8.1. Birjada ticarət, ticarət olunan bazarlar və qiymətli kağızlar üzrə dayandırıla bilər.

8.2. Birjada ticarət aşağıdakı hallarda ticarət olunan bazarlar üzrə dayandırılır:
8.2.1. Ticarət sistemində və ticarət sisteminin quraşdırıldığı proqram texniki vasitələrdə texniki nasazlıqlar baş verdikdə, ticarət sisteminə birja üzvlərinin qoşulması Birja tərəfindən texniki cəhətdən təmin oluna bilmədikdə və ya Birjanın ticarət sistemində, habelə ticarət sisteminin işinə təsir edə biləcək proqram texniki avadanlıqlarda öncədən elan edilmiş profilaktik işlər görüldükdə;
8.2.2. Bazarın qorunması məqsədi ilə Birjanın bazarda sui-istifadə hallarının qarşısının alınmasına dair qaydalarında nəzərdə tutulmuş hallarda;
8.2.3. Fövqəladə hadisələr baş verdikdə;
8.2.4. QKDK-nın müvafiq qərarı ilə;
8.2.5. Qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda.

8.3. Birjada ticarət aşağıdakı hallarda qiymətli kağızlar üzrə dayandırılır:
8.3.1. Bu Qaydaların 9-cu bəndinin müddəaları ilə nəzərdə tutulduğu hallarda;
8.3.2. Birjanın listinq və bazarda sui-istifadə hallarının qarşısının alınmasına dair qaydalarında nəzərdə tutulmuş hallarda;
8.3.3. Bu Qaydaların 6-cı bəndinin müddəalarına müvafiq olaraq istinad qiymətinə düzəlişlər olunduqda;

8.3.4. QKDK-nın müvafiq qərarı ilə;
8.3.5. Qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda.

**9. Qiymət qeyri-sabitliyinin qarşısının alınması**

9.1. Qiymətli kağızlarla bağlanılacaq əqdin qiyməti bu qiymətli kağızlar üzrə cari ticarət günü ərzində bağlanılmış son əqdin qiymətinə nəzərən 10% aşağı və ya 10% yuxarı həddə çatdıqda, Birja bazarda qiymət qeyri-sabitliyinin qarşısını almaq məqsədi ilə qiymətli kağızlar üzrə ticarəti dayandıraraq, bu Qaydalarla müəyyən edilmiş tarazlaşdırıcı hərrac üsulu ilə davam etdirir.

9.2. Qiymət qeyri-sabitliyinin qarşısının alınması məqsədi ilə tətbiq edilən tarazlaşdırıcı hərracın müddəti 90 (doxsan) saniyədən 120 (bir yüz iyirmi) saniyəyədək davam edir və təsadüfi qaydada müəyyən edilmiş vaxtda bitir. Bu müddətin sonunda ticarət dayandırılmadan öncəki ticarət üsulu ilə Birjanın ticarət reqlamentinə uyğun olaraq davam etdirilir.

9.3. Bu Qaydaların 9.1.-ci bəndinin müddəalarına müvafiq olaraq, ticarətin müvəqqəti dayandırılması “Hamısını İcra Et” şərti ilə təqdim edilmiş sifarişin təmin edilməsi nəticəsində baş verəcəksə, bu zaman belə sifariş avtomatik olaraq ləğv edilir və ticarət dayandırılmadan davam etdirilir;

9.4. Bu Qaydaların 9.1.-ci bəndinin müddəalarına müvafiq olaraq, ticarətin müvəqqəti dayandırılması “Qalığı Ləğv Et” şərti ilə təqdim edilmiş sifarişin təmin edilməsi nəticəsində baş verəcəksə, bu zaman belə sifarişin ticarətin dayandırılmasına səbəb olmayan hissəsi icra edilir, digər hissəsi isə ticarət dayandırıldıqdan sonra avtomatik olaraq ləğv edilir.

9.5. Bu Qaydaların 9.1.-ci bəndinin müddəaları ünvanlı əqdlərə şamil edilmir.

9.6. Bu Qaydaların 9.1.-ci bəndinin müddəaları Birjanın ticarət reqlamenti üzrə fasiləsiz ticarət fazasından öncə açılış fazası tətbiq edildikdə, fasiləsiz ticarət fazası ərzində tətbiq edilir.

9.7. Ticarətin dayandırılması müddəti ərzində, bu müddətədək daxil edilmiş sifarişlər ticarət iştirakçıları tərəfindən ləğv edilə bilər.

9.8. Ticarətin dayandırılması müddəti ərzində ticarət iştirakçıları tərəfindən yeni sifarişlərin daxil edilməsi və artıq daxil edilmiş sifarişlərə düzəlişlərin edilməsi qadağan edilir.

9.9. Birjanın ticarət reqlamenti ilə açılış fazası nəzərdə tutulduqda, ticarət dayandırıldıqdan sonra açılış fazası ilə tarazlaşdırıcı qiymətli hərrac qaydasında başlayır. Bu halda, açılış fazasının müddəti 15 (on beş) dəqiqədən artıq olmamalıdır.

9.10. Ticarət dayandırıldıqda Birja QKDK-nı və ticarət iştirakçılarını 1 (bir) iş günü ərzində məlumatlandırır.

9.11. Bu Qaydaların 9.1.-ci bəndinin müddəaları ilə nəzərdə tutulmuş hallar istisna olmaqla, ticarətin dayandırılması Birjanın İdarə Heyətinin qərarı ilə həyata keçirilir.

**10. Ticarət günləri, ticarət saatları və ticarət reqlamenti**

10.1. Birjada ticarət yalnız ticarət günlərində və ticarət saatları ərzində baş verir.

10.2. Azərbaycan Respublikası ərazisində tətbiq edilən bütün iş günləri ticarət günləri hesab edilir. Birjanın İdarə Heyəti məlumatı 1 (bir) iş günü öncədən açıqlamaqla, ticarət günlərinin təqviminə dəyişiklik edə bilər. Ticarət təqvimi ticarət və qeyri-ticarət günlərinin siyahısından ibarətdir.

10.3. Ticarət saatları və tətbiq edilən müxtəlif ticarət sessiyalarının başlanma və bitmə vaxtları ticarət reqlamentində əks olunur (Əlavə №1).

10.4. Ticarət təqvimi, ticarət reqlamenti və onlara edilmiş dəyişikliklər qüvvəyə minməzdən ən azı 1 (bir) iş günü öncə açıqlanır. Birja ticarət təqvimi və ticarət reqlamentinin özünün internet səhifəsi vasitəsi ilə mütəmadi açıqlanmasını təmin edir.

**11. Qiymət addımı və lot ölçüsü**

11.1. Qiymət addımı ticarət olunan alətlər üzrə aşağıdakı kimi müəyyən olunur:
11.1.1. Səhmlər üzrə qiymət addımı 0.01 manat;
11.1.2. İstiqrazlar üzrə qiymət addımı 0.0001 manat;
11.1.3. Baza aktivlərinin qiyməti, gəlirliliyi, məzənnə fərqi və ya risk dərəcəsinin dəyişikliyinin alınıb-satılmasını nəzərdə tutan törəmə maliyyə alətləri üzrə təşkil edilmiş marja ticarəti üzrə qiymət addımı 0.0001 baza ölçüsü olaraq müəyyən olunur;
11.1.4. Opsion və fyuçerslər üzrə 0.01 manat müəyyən olunur;
11.1.5. Repo əməliyyatları üzrə qiymət addımı repo baza aktivinin xüsusiyyətlərinə görə müəyyən edilir;
11.1.6. Digər alətlər üzrə qiymət addımı Birjanın İdarə Heyəti tərəfindən müəyyən olunur.

11.2. Standart lot ölçüsü ticarət olunan alətlər üzrə aşağıdakı kimi müəyyən olunur:
11.2.1. Səhmlər üzrə lot ölçüsü 1 (bir) səhm;
11.2.2. İstiqrazlar üzrə lot ölçüsü 1 (bir) istiqraz;
11.2.3. Baza aktivlərinin qiyməti, gəlirliliyi, məzənnə fərqi və ya risk dərəcəsinin dəyişikliyinin alınıb-satılmasını nəzərdə tutan törəmə maliyyə alətləri üzrə lot ölçüsü 0.01 baza aktivi;
11.2.4. Opsion və fyuçerslər üzrə lot ölçüsü 1 (bir) müqavilə olaraq müəyyən olunur;
11.2.5. Repo əməliyyatları üzrə lot ölçüsü repo baza aktivinin xüsusiyyətlərinə görə müəyyən edilir;
11.2.6. Digər alətlər üzrə lot ölçüsü Birjanın İdarə Heyəti tərəfindən müəyyən olunur.

**12. Bazara nəzarət və ticarət olunan bazarların qorunması**

12.1. Birja təşkil etdiyi ticarətin ədalətliliyinin və şəffaflığının təmin edilməsi, ticarət olunan bazarların qorunması və ticarət əməliyyatlarının bu Qaydalara uyğun həyata keçrilməsini təmin etmək məqsədi ilə təşkil etdiyi bazarlara nəzarəti həyata keçirir. Birja tərəfindən nəzarət monitorinq qaydasında həyata keçirilir.

12.2. Bazarın qorunması və monitorinqi qayda və prosedurları bazarda sui-istifadələrin qarşısının alınması qaydaları ilə tənzimlənir.

## Maddə 5
## SİFARİŞLƏR VƏ KOTİROVKALAR

**13. Sifarişlər və kotirovkalar üzrə ümumi qaydalar**

13.1. Sifariş və kotirovka bu Qaydaların müddəalarına əsasən birja üzvü tərəfindən müvafiq olaraq sifarişdə və ya kotirovkada qeyd edilmiş şərtlərlə əqdin bağlanılması iradəsini birmənalı şəkildə ifadə edir.

13.2. Ticarət sisteminə daxil edilmiş və qüvvədə olan bütün sifarişlər və kotirovkalar sifarişlər kitabında saxlanılır.

13.3. Sifarişlər kitabında ticarətə buraxılmış hər bir qiymətli kağız və törəmə maliyyə aləti üzrə təqdim edilmiş sifarişlər o cümlədən, kotirovkalar alış və satış istiqamətləri üzrə qruplaşdırılır və onların təqdim edildiyi vaxta görə sıralanır. Təqdim edilmiş sifarişlərin və kotirovkaların hər bir qiymət səviyyəsi üzrə ayrı-ayrılıqda və məcmu həcmi qeyd edilir. Sifarişlər kitabında sifariş və kotirovka təqdim etmiş ticarət iştirakçısının anonimliyi təmin edilir.

13.4. Ticarət sistemində sifariş təqdim edilərkən aşağıdakı məlumatlar ticarət iştirakçısı tərəfindən daxil edilməlidir:
13.4.1. Qiymətli kağızın və ya törəmə maliyyə alətinin ticarət simvolu;
13.4.2. Sifarişin istiqaməti (alış və ya satış);
13.4.3. Qiymətli kağızın və ya törəmə maliyyə alətinin sayı (lotlarla);
13.4.4. Bir lotun qiyməti (bazar qiymətli sifarişlər istisna olunmaqla);
13.4.5. Sifarişin növü;
13.4.6. Sifarişin icra şərti;
13.4.7. Ticarət hesabı identifikatoru (müştəri və ya şəxsi);
13.4.8. Ticarət iştirakçısının ticarət sistemində fərdi identifikasiya kodu.

13.5. Ticarət sistemində kotirovka təqdim edilərkən aşağıdakı məlumatlar ticarət iştirakçısı tərəfindən daxil edilməlidir:
13.5.1. Qiymətli kağızın və ya törəmə maliyyə alətinin ticarət simvolu;

13.5.2. Bir lotun alış və satış qiyməti;
13.5.3. Alış həcmi və bu Qaydalara müvafiq olaraq satış həcmi;
13.5.4. Ticarət hesabı identifikatoru (şəxsi);
13.5.5. Ticarət iştirakçısının fərdi identifikasiya kodu.

13.6. Kotirovkalar yalnız limit qiyməti ilə və fasiləsiz ticarət fazasında təqdim edilə bilər.

**14. Sifariş növləri**

14.1. Birja tərəfindən aşağıdakı sifariş növlərinə icazə verilir:
14.1.1. Limit qiymətli (rəqabətli) sifarişlər.
14.1.2. Bazar qiymətli (qeyri-rəqabətli) sifarişlər.

14.2. Limit qiymətli sifarişlər bu sifarişdə qeyd edilmiş qiymət və ya ondan daha yaxşı qiymətlə icra edilə bilər.

14.3. Bazar qiymətli sifarişlər daxil edilərkən ticarət sistemində qiymətindən asılı olmayaraq mövcud olan əks istiqamətli sifariş və ya sifarişlərlə icra olunur, sifarişin icra olunmamış hissəsi avtomatik olaraq ləğv edilir. Bazar qiymətli sifarişlər təqdim edilərkən sifarişin qiyməti qeyd edilmir. Bazar qiymətli sifariş ticarət sistemində mövcud olan əks istiqamətli sifarişlərdən asılı olaraq bir neçə qiymətlə icra oluna bilər. Bu Qaydaların 7-ci bəndi ilə qiymət dəhlizi təyin edilmədikdə, bazar qiymətli sifarişlərin təqdim edilməsi Birja tərəfindən qadağan edilir.

**15. Sifarişlərin icra şərtləri**

15.1. Ticarət iştirakçıları tərəfindən təqdim dilən limit qiymətli sifarişlər üzrə aşağıdakı icra şərtləri təyin edilə bilər:
15.1.1. **Qalığı Ləğv Et (QLE):** Sifariş ticarət sisteminə daxil edilən anda sifarişin icra edilə bilən hissəsi icra edilir, yerdə qalan hissəsi isə avtomatik olaraq ləğv edilir.
15.1.2. **Hamısını İcra Et (HİE):** Sifariş yalnız tam həcmdə icra edilə bilər. Sifariş ticarət sisteminə daxil edilən anda tam həcmdə icra edilə bilmədikdə avtomatik olaraq ləğv edilir.
15.1.3. **İcra Et və Saxla (İES):** Sifariş hissə-hissə icra edilə bilər. Sifariş tam icra edilmədikdə və ya qismən icra edildikdə, sifariş və ya onun icra edilməyən hissəsi bu Qaydalara uyğun şəkildə qüvvədə qalır.
15.1.4. **Açılış Qiymətli Sifariş (AQS):** Sifariş açılış fazası tətbiq edildikdə, açılış sessiyası ərzində təqdim edilə bilər. Bu sifarişlər açılış sessiyasının sonunda icra edilir, sifarişin icra edilməmiş hissəsi avtomatik olaraq ləğv edilir.
15.1.5. **Bağlanış Qiymətli Sifariş (BQS):** Sifariş bağlanış fazası tətbiq edildikdə, bağlanış sessiyası ərzində təqdim edilə bilər. Bu sifarişlər bağlanış sessiyasının sonunda icra edilir, sifarişin icra edilməmiş hissəsi avtomatik olaraq ləğv edilir;
15.1.6. **Alışı dayandır (Buy stop)** - Alış sifarişinin bazarda bu sifarişdə qeyd edilmiş qiymətə bərabər və ya ondan daha yüksək satış qiyməti formalaşdıqda icra edilməsini nəzərdə tutur;

15.1.7. **Satışı dayandır (Sell stop)** - Satış sifarişinin bazarda bu sifarişdə qeyd edilmiş qiymətə bərabər və ya ondan daha aşağı alış qiyməti formalaşdıqda icra edilməsini nəzərdə tutur;
15.1.8. **Zərəri dayandır (Stop Loss)** - sifariş qiymətin müəyyən olunmuş həddə çatdığı təqdirdə zərərin dayandırılması məqsədi ilə icra olunur;
15.1.9. **Mənfəəti al (Take Profit)** – sifariş qiymətin müəyyən olunmuş həddə çatdığı təqdirdə mənfəətin əldə edilməsi məqsədi ilə icra olunur.

15.2. Qiymətli kağızların ticarəti üzrə bazar qiymətli sifarişlər bu Qaydaların yalnız 15.1.1-15.1.5-ci bəndləri ilə nəzərdə tutulan icra şərti ilə daxil edilə bilər.

15.3. Baza aktivlərinin qiyməti, gəlirliliyi, məzənnə fərqi və ya risk dərəcəsinin dəyişikliyinin alınıb-satılmasını nəzərdə tutan törəmə maliyyə alətləri üzrə təşkil edilmiş marja ticarəti zamanı sifarişlər bu qaydaların yalnız 14.1.6., 14.1.7., 14.1.8., 14.1.9.-cu bəndləri ilə nəzərdə tutulan icra şərti ilə daxil edilə bilər.

15.4. Baza aktivlərinin qiyməti, gəlirliliyi, məzənnə fərqi və ya risk dərəcəsinin dəyişikliyinin alınıb-satılmasını nəzərdə tutan törəmə maliyyə alətləri üzrə təşkil edilmiş marja ticarəti istisna olmaqla, bu Qaydalara uyğun olaraq təqdim edilmiş sifarişlər və kotirovkalar onların təqdim edildiyi ticarət günün sonunadək qüvvədədir və ticarət günün sonunda avtomatik olaraq ləğv edilir.

**16. Sifarişlərin və kotirovkaların ticarət sisteminə daxil edilməsi vaxtı**

16.1. Sifarişin və kotirovkanın ticarət sisteminə daxil edilməsi vaxtı bu sifarişin və ya kotirovkanın ticarət sistemi tərəfindən təsdiq olunaraq qeydiyyata alındığı vaxt hesab olunur. Bütün qeydiyyata alınmış sifariş və kotirovkalara ticarət sistemi tərəfindən fərdi sıra nömrəsi verilir.

**17. Sifarişlərə və kotirovkalara düzəlişlərin edilməsi və qüvvədən düşməsi**

17.1. Düzəliş edilmiş sifariş və kotirovka müvafiq olaraq yeni sifariş və kotirovka hesab edilir və ticarət iştirakçısı tərəfindən bu dəyişikliklərin təsdiq edildiyi vaxt əsasında yenidən qeydiyyata alınır.

17.2. Sifarişlər və kotirovkalar aşağıdakı hallarda qüvvədən düşmüş hesab edilir:
17.2.1. Bu Qaydaların 15.4.-ci bəndinin müddəalarına uyğun olaraq ticarət gününün sonunda;
17.2.2. Sifariş və ya kotirovka tam olaraq icra edildikdə;
17.2.3. Bu Qaydaların 15.1.1 və 15.1.2.-ci bəndlərinin müddəalarına uyğun olaraq Qalığı Ləğv Et və Hamısını İcra Et şərtli sifarişlər üzrə icra şərti təmin edildikdə;
17.2.4. Bu Qaydaların 17.1-ci bəndinin müddəalarına müvafiq olaraq sifarişə və ya kotirovkaya düzəliş edildikdə;
17.2.5. Ticarət iştirakçısı sifarişi və ya kotirovkanı ləğv etdikdə;

17.2.6. Sifariş növü və ya icra şərti verilmiş ticarət fazası və ya ticarətin keçirilməsi üsulu ilə qadağan edildikdə və ya nəzərdə tutulmadıqda;
17.2.7. Lot ölçüsü və ya qiymət addımı dəyişdirildikdə;
17.2.8. Qiymətli kağızın istinad qiyməti və ya qiymət dəhlizi dəyişdirildikdə;
17.2.9. Sifarişin və ya kotirovkanın təqdim edildiyi qiymətli kağız və ya törəmə maliyyə aləti Birjanın listinq qaydaları əsasında delistinq olunduqda;
17.2.10. Birjanın bazarda sui-istifadə hallarının qarşısının alınması qaydalarına əsasən sifarişlər ləğv edildikdə.

17.3. Qüvvədən düşmüş və ləğv edilmiş sifarişlər ticarət əməliyyatlarında iştirak etmir.

## Maddə 6
## TİCARƏT ÜSULLARI

### 18. Sifarişlərin uzlaşdırılması və icrası üzrə ümumi müddəalar

18.1. Sifarişlərin icrası zamanı digər sifarişlərə nəzərən daha yaxşı qiymətlə təqdim edilmiş sifarişlər üstün mövqeyə malikdir.

18.2. Sifarişlər eyni qiymət ilə təqdim edildikdə, bu sifarişlərin icrası zamanı daha öncə təqdim edilmiş sifarişlər üstün mövqeyə malikdir.

18.3. Ticarət sistemində bağlanılan əqdin qiyməti ticarət iştirakçıları tərəfindən təqdim edilən sifarişlər əsasında bu Qaydalara müvafiq olaraq müəyyən edilir.

### 19. Tarazlaşdırıcı qiymətli hərrac üsulu

19.1. Tarazlaşdırıcı qiymətli hərrac üsullu ticarəti zamanı əqdlər hərracın sonunda toplanmış alış-satış sifarişlərinin bir qiymətlə (tarazlaşdırıcı qiymətlə) uzlaşdırılması yolu ilə bağlanılır.

19.2. Tarazlaşdırıcı qiymətli hərrac iki mərhələdə təşkil olunur: sifarişlərin qəbul edilməsi və əqdlərin bağlanılması.
19.2.1. Sifarişlərin qəbulu mərhələsində ticarət iştirakçıları limit qiymətli alış və satış sifarişləri təqdim edirlər. Bu mərhələdə ticarət iştirakçıları təqdim etdikləri sifarişlərin şərtlərini dəyişdirə və ya bu sifarişləri ləğv edə bilər. Sifarişlərin təqdim edilmə müddəti bitdikdən sonra sifarişlərin təqdim edilməsinə, dəyişdirilməsinə və ləğv edilməsinə yol verilmir.
19.2.2. Əqdlərin bağlanılması mərhələsində əqdlər bu Qaydalara müvafiq olaraq tarazlaşdırıcı qiymətlə bağlanılır.

19.3. Tarazlaşdırıcı qiymət aşağıdakı qaydada müəyyən olunur:
19.3.1. Sifarişlər kitabında ən çox sayda qiymətli kağızların alınıb-satılmasını təmin edən qiymət tarazlaşdırıcı qiymət olaraq təyin edilir;

19.3.2. Sifarişlər kitabında ən çox sayda qiymətli kağızların alınıb-satılmasını təmin edən bir neçə qiymət mövcud olduqda, tarazlaşdırıcı qiymət bu qiymətlərdən ən yüksək və ən aşağı olanın riyazi ortası əsasında hesablanır. Hesablanmış orta qiymət addımına uyğun olaraq yuvarlaqlaşdırılır və son nəticə tarazlaşdırıcı qiymət olaraq təyin edilir.

19.4. Sifarişlər tarazlaşdırıcı qiymət ilə aşağıdakı qaydada icra olunur:
19.4.1. Tarazlaşdırıcı qiymətə nəzərən daha yaxşı qiyməti olan (ən yüksək qiymətli alış sifarişi və an aşağı qiymətli satış sifarişi) alış və satış sifarişləri ən yaxşı qiymət növbəliliyi ilə tam həcmdə icra edilir;
19.4.2. Tarazlaşdırıcı qiymətə bərabər qiyməti olan alış və satış sifarişləri üzrə alış və ya satış istiqamətlərindən biri tam həcmdə icra edilir.

**20. Fasiləsiz ticarət üsulu**

20.1. Fasiləsiz ticarət üsullu ticarəti zamanı əqdlər alış və satış sifarişlərinin aşağıdakı şərtlər daxilində uzlaşdırılması yolu ilə bağlanılır:

20.1.1. Alış istiqamətli sifariş, əks istiqamətdə olan və bütün icra şərtləri bu sifarişə uyğun gələn ən yaxşı qiyməti olan satış sifarişi (sifarişləri) ilə uzlaşdırılır;
20.1.2. Satış istiqamətli sifariş, əks istiqamətdə olan və bütün icra şərtləri bu sifarişə uyğun gələn ən yaxşı qiyməti olan alış sifarişi (sifarişləri) ilə uzlaşdırılır;

20.2. Alış və satış sifarişləri uzlaşdığı zaman, əqd bu sifarişlərdən vaxt etibarı ilə öncə təqdim edilən sifarişin (sifarişlərin) qiyməti ilə bağlanılır.

20.3. Bazar qiymətli sifarişlər üzrə əqd bağlanıldığı zaman əqdin qiyməti, ən yaxşı qiyməti olan əks istiqamətli sifarişin (sifarişlərin) qiyməti olaraq təyin edilir.

20.4. Sifariş sifarişlər kitabında mövcud olan əks istiqamətli sifariş (sifarişlər) ilə uzlaşmadıqda, bu sifariş sifarişlər kitabına icra növbəliliyi ilə daxil edilir.

20.5. Fasiləsiz ticarət üsullu ticarəti zamanı ticarət iştirakçıları daxil etdikləri və sifarişlər kitabında mövcud olan icra edilməmiş sifarişlərini və ya onun icra edilməmiş hissəsini dəyişdirə və ya ləğv edə bilərlər.

20.6. Bu Qaydaların 20-ci bəndinin müddəaları kotirovkalara da şamil edilir.

**21. Ünvanlı ticarət üsulu**

21.1. Ünvanlı ticarət üsullu ticarəti zamanı əqdlər tərəflərdən birinin digər tərəfə əqdin bağlanılma şərlərini ifadə edən alış və ya satış təklifi göndərməsi, digər tərəfin isə ona ünvanlanmış təklifin təsdiq edilməsi yolu ilə bağlanılır.

21.2. Ticarət iştirakçıları onlara ünvanlanmış alış və satış sifarişini təsdiq edə və ya rədd edə bilər. Ünvanlı ticarət üsullu ticarəti zamanı əqdlər yalnız onun ünvanlandığı kontragent tərəfindən təsdiq edildiyi zaman baş tutmuş hesab edilir. Ticarət iştirakçısı kontragent tərəfindən təsdiq və ya rədd edilməmiş ünvanlı əqd təkliflərini ləğv edə bilər.

21.3. Bu Qaydaların 21-ci bəndinin müddəaları ilə, alış və ya satış təklifinin göndərilməsi əqdin bağlanılacağı əks tərəfin öncədən qeyd edilməsi yolu ilə alış və ya satış sifarişinin təqdim edilməsini, alış və ya satış təklifinin təsdiq edilməsi isə ticarət iştirakçısına ünvanlanmış alış və ya satış təklifi ilə eyni şərtlərə malik əks sifarişin təqdim edilməsi nəzərdə tutulur.

**22. Bir qiymətli hərrac üsulu (birbaşa hərrac üsulu)**

22.1. Bir qiymətli hərrac üsullu ticarəti zamanı əqdlər hərracın sonunda, toplanmış alış və ya satış sifarişlərinə qarşı qiymətli kağızları hərraca çıxaran ticarət iştirakçısı tərəfindən öncədən elan edilmiş bir qiymətlə əks sifarişin daxil edilməsi yolu ilə bağlanılır.

22.2. Bir qiymətli hərrac iki mərhələdə təşkil olunur: sifarişlərin qəbul edilməsi və əqdlərin bağlanılması.
22.2.1. Sifarişlərin qəbulu mərhələsində ticarət iştirakçıları qeyri-rəqabətli sifarişlər təqdim edirlər. Bu mərhələdə ticarət iştirakçıları hərraca çıxarılmış qiymətli kağızlar üzrə təqdim etdikləri sifarişlərin şərtlərini dəyişdirə və ya bu sifarişləri ləğv edə bilər. Sifarişlərin təqdim edilmə müddəti bitdikdən sonra sifarişlərin təqdim edilməsinə, dəyişdirilməsinə və ləğv edilməsinə yol verilmir;
22.2.2. Əqdlərin bağlanılması mərhələsində qiymətli kağızları hərraca çıxaran ticarət iştirakçısı öncədən elan edilmiş qiymət və həcmdə toplanmış sifarişlər üzrə əks sifarişi daxil edir və nəticədə əqdlər bağlanılır.

22.3. Sifarişlərin qəbulu mərhələsində təqdim edilmiş sifarişlər (sifarişlər kitabı) yalnız qiymətli kağızları hərraca çıxaran ticarət iştirakçısına açıqlanır. Digər hərrac iştirakçıları yalnız özlərinin təqdim etdikləri sifarişləri görə bilir.

**23. Rəqabətli hərrac üsulu (dolayı hərrac üsulu)**

23.1. Rəqabətli hərrac üsullu ticarəti zamanı əqdlər hərracın sonunda, toplanmış alış və ya satış sifarişlərinə qarşı qiymətli kağızları hərraca çıxaran ticarət iştirakçısı tərəfindən əks sifarişin daxil edilməsi yolu ilə bağlanılır.

23.2. Rəqabətli hərrac iki mərhələdə təşkil olunur: sifarişlərin qəbul edilməsi və əqdlərin bağlanılması.
23.2.1. Sifarişlərin qəbulu mərhələsində ticarət iştirakçıları rəqabətli və/və ya qeyri-rəqabətli sifarişlər təqdim edirlər. Bu mərhələdə ticarət iştirakçıları hərraca çıxarılmış qiymətli kağızlar üzrə təqdim etdikləri sifarişlərin şərtlərini dəyişdirə və ya bu sifarişləri ləğv edə bilər.

Sifarişlərin təqdim edilmə müddəti bitdikdən sonra sifarişlərin təqdim edilməsinə, dəyişdirilməsinə və ləğv edilməsinə yol verilmir;
23.2.2. Əqdlərin bağlanılması mərhələsində qiymətli kağızları hərraca çıxaran ticarət iştirakçısı təqdim edilmiş sifarişlərin icra ediləcəyi minimal qiyməti (kəsmə qiymət) və hərrac zamanı təmin ediləcək rəqabətli sifarişlərin orta çəkili qiymətini (orta çəkili qiymət) müəyyən edərək əks sifarişi ticarət sisteminə daxil edir:
23.2.2.1. Rəqabətli sifarişdə qeyd olunan qiymət kəsmə qiymətdən aşağı olmadıqda bu sifarişlər təmin edilir.
23.2.2.2. Qeyri-rəqabətli sifariş orta çəkili qiymətlə yerinə yetirilir. Bu halda qeyri-rəqabətli sifarişlərlə alınan istiqrazların sayı sifarişdə göstərilən pul vəsaitinin məbləğinin orta çəkili qiymətinə bölünməsi yolu ilə hesablanır (yuvarlaqlaşdırılmış ədədlə).

23.3. Sifarişlərin qəbulu mərhələsində təqdim edilmiş sifarişlər (sifarişlər kitabı) yalnız qiymətli kağızları hərraca çıxaran ticarət iştirakçısına açıqlanır. Digər hərrac iştirakçıları yalnız özlərinin təqdim etdikləri sifarişləri görə bilir.

## Maddə 7
## TİCARƏTİN KEÇİRİLMƏSİ VƏ ƏQDLƏRİN BAĞLANILMASI

### 24. Birjada ticarətin keçrilməsinə dair ümumi müddəalar

24.1. Birjada ticarət, ticarət iştirakçıları tərəfindən ticarət sistemində təqdim ediliş sifarişlər və kotirovkalar əsasında təşkil edilir.

24.2. Birjanın ticarət sistemində təqdim edilmiş sifarişlərin və kotirovkaların bu Qaydaların müddəalarına, o cümlədən tətbiq edilən ticarət üsuluna, ticarətin keçirilməsi vaxtlarına, ticarət iştirakçısının səlahiyyətlərinə, qiymət dəhlizinə, minimal və maksimal həcminə, lot sayına, qiymət addımına uyğunluğu və ticarət iştirakçısının klirinq təşkilatında müvafiq ticarət limitinin olması yoxlanılır. Birjanın bu Qaydalarla müəyyən edilmiş tələblərinə uyğun olan sifarişlər ticarət sisteminin sifarişlər kitabında qeydiyyata alınır.

24.3. Bu Qaydaların müddəalarına uyğun olaraq yalnız Birjanın ticarət sisteminin sifarişlər kitabında qeydiyyata alınmış sifarişlər (ünvanlı ticarət istisna olmaqla) və kotirovkalara ticarət əməliyyatlarında iştirak edir.

24.4. Birjada əqdlər ticarət sistemində bu Qaydaların 6-cı maddəsində qeyd edilmiş ticarət üsullarından biri vasitəsi ilə uzlaşmış sifarişlər əsasında bağlanılır.

### 25. Ticarətin fazaları

25.1. Birjada ticarət bu Qaydalarla müəyyən edilmiş ticarət üsulları vasitəsi ilə ticarət günü ərzində təşkil olunur. Ticarət günü aşağıdakı fazalara bölünür:

25.1.1. Açılış hərracı;
25.1.2. Fasiləsiz ticarət;
25.1.3. Bağlanış hərracı.

25.2. Bu Qaydaların 25.1.-ci bəndində nəzərdə tutulmuş ticarət fazalarının ticarət günü ərzində tətbiq edilməsi Birjanın İdarə Heyəti tərəfindən müəyyən edilmiş ticarət reqlamenti əsasında müəyyən edilir.

25.3. Sifarişlər kitabı bütün ticarət fazaları ərzində (ünvanlı ticarət istisna olmaqla) ticarət iştirakçıları üçün açıq hesab edilir.

25.4. Bu Qaydaların 15.1.1. və 15.1.2.-ci bəndlərində göstərilmiş icra şərtli sifarişlər yalnız fasiləsiz ticarət fazasında təqdim edilə bilər.

25.5. Bu Qaydaların 15.1.4. və 15.1.5-ci bəndlərində göstərilmiş icra şərtli sifarişlər yalnız bu açılış və bağlanış hərracları fazalarında təqdim edilə bilər.

25.6. Açılış və Bağlanış hərracı fazalarında bazar qiymətli sifarişlərin daxil edilməsi qadağandır.

**26. Açılış hərracı fazası**

26.1. Açılış hərracı fazası zamanı ticarət bu Qaydaların 6-cı maddəsi ilə nəzərdə tutulmuş tarazlaşdırıcı qiymətli hərrac üsulu ilə təşkil olunur.

26.2. Açılış hərracı fazası zamanı sifarişlərin təqdim edilməsi üçün nəzərdə tutulmuş müddət (sifarişlərin qəbul edilməsi mərhələsi), bu müddətin sonuna ən çox 30 saniyə qalmış təsadüfi vaxtda bitir.

26.3. Açılış hərracı fazasının əqdlərin bağlanılması mərhələsində ticarət iştirakçıları tərəfindən sifarişlərin təqdim edilməsi qadağandır.

26.4. Açılış hərracının sonunda hər hansı bir əqd bağlanılmadıqda, açılış qiyməti fasiləsiz ticarət fazasında bağlanılan ilk əqdin qiyməti olaraq təyin edilir.

**27. Fasiləsiz ticarət fazası**

27.1. Fasiləsiz ticarət fazası zamanı ticarət bu Qaydaların 6-cı maddəsi ilə nəzərdə tutulmuş fasiləsiz ticarət üsulu ilə təşkil olunur.

27.2. Açılış hərracı fazası zamanı icra edilməmiş sifarişlər bu qaydaların 24.2.-ci bəndinin müddəalarına uyğun olduqda, fasiləsiz ticarət fazasında ticarətdə iştirak edir.

**28. Bağlanış hərracı fazası**

28.1. Bağlanış hərracı fazası zamanı ticarət bu Qaydaların 6-cı maddəsi ilə nəzərdə tutulmuş tarazlaşdırıcı qiymətli hərrac üsulu ilə təşkil olunur.

28.2. Bağlanış hərracı fazası zamanı sifarişlərin təqdim edilməsi üçün nəzərdə tutulmuş müddət (sifarişlərin qəbul edilməsi mərhələsi), bu müddətin sonuna ən çox 30 saniyə qalmış təsadüfi vaxtda bitir.

28.3. Bağlanış hərracı fazasının əqdlərin bağlanılması mərhələsində ticarət iştirakçıları tərəfindən sifarişlərin təqdim edilməsi qadağandır.

28.4. Bağlanış hərracının sonunda hər hansı bir əqd bağlanılmadıqda, bağlanış qiyməti fasiləsiz ticarət fazasında bağlanılan son əqdin qiyməti olaraq təyin edilir.

**29. Ünvanlı əqdlər**

29.1. Ünvanlı əqdlərin bağlanılmasına aşağıdakı hallarda Birja tərəfindən icazə verilir:
29.1.1. Bu Qaydaların 29.2.-ci bəndi ilə nəzərdə tutulmuş iri həcmli sifarişlərin təqdim edilməsi yolu ilə əqdlərin bağlanılması;
29.1.2. Alıcı və ya satıcı qismində Azərbaycan Respublikasının dövlət orqanları çıxış edən strateji əhəmiyyətli alqı-satqı əməliyyatlarının keçirilməsi;
29.1.3. Qiymətli kağızların qapalı yerləşdirmə üsulu ilə yerləşdirilməsi.

29.2. Aşağıdakı sifarişlər iri həcmli hesab olunur:
29.2.1. Market meyker tərəfindən likvidiliyi təmin edilmiş səhmlər üzrə 500 000 (beş yüz min) manat və ya nizamnamə kapitalının 25%-i və ondan artıq həcmdə təqdim edilən sifarişlər;
29.2.2. Digər səhmlər üzrə 60 000 (altmış min) manat və ondan artıq həcmdə təqdim edilən sifarişlər;
29.2.3. Market meyker tərəfindən likvidiliyi təmin edilmiş korporativ istiqrazlar üzrə 10 000 000 (on milyon) manat və ya buraxılışın 80%-i və ondan artıq həcmdə təqdim edilən sifarişlər;
29.2.4. Digər korporativ istiqrazlar üzrə 5 000 000 (beş milyon) manat və ya buraxılışın 60%-i və ondan artıq həcmdə təqdim edilən sifarişlər.

29.3. Birjada ticarətə buraxılmış qiymətli kağızlar üzrə ünvanlı ticarət bu Qaydaların 6-cı maddəsi ilə nəzərdə tutulmuş ünvanlı ticarət üsulu ilə təşkil olunur.

29.4. Ünvanlı əqdlərin bağlanılması üçün təqdim edilən sifarişlər yalnız fasiləsiz ticarət fazası ərzində, ticarət sistemində ünvanlı əqdlərin bağlanılması üçün yaradılmış xüsusi bazar seqmentində daxil edilə bilər.

29.5. Ticarət sistemində ünvanlı əqdlərin bağlanılması üçün sifariş təqdim olunduqda aşağıdakı məlumatlar Birja üzvü tərəfindən daxil edilməlidir:
29.5.1. Sifarişin istiqaməti (alış və ya satış);
29.5.2. Qiymətli kağızların sayı (lotlarla);
29.5.3. Bir qiymətli kağızın qiyməti;
29.5.4. Sifarişin ünvanlandığı əks tərəf qismində çıxış edən birja üzvü.

29.6. Ünvanlı əqdlərin bağlanılması üçün təqdim edilən sifarişlər üzrə sifarişlər kitabı tərtib edilmir.

29.7. Ünvanlı əqdlərin bağlanılması üçün təqdim edilən sifarişlər və ünvanlı əqdlər yalnız onun tərəflərinə açıqlanır. Qanunvericilikdə digər hallar nəzərədə tutulmadıqda, Birja ticarət günü ərzində bağlanılmış ünvanlı əqdlərin ümumi həcmini məlumatların açıqlanması qaydalarına müvafiq olaraq açıqlayır.

29.8. Bu Qaydaların 7-ci bəndinin müddəaları ilə nəzərdə tutulmuş qiymət dəhlizi ünvanlı əqdlərə şamil olunur. Ünvanlı əqdlər bu qaydalara müvafiq olaraq istinad qiymətinin hesablanması zamanı nəzərə alınmır.

29.9. Ünvanlı əqdlərin bağlanılması üçün təqdim edilən sifarişlər yalnız onun təqdim edildiyi ticarət günü ərzində qüvvədə saxlanılır.

29.10. Ünvanlı əqd bu əqdin bağlanılması üçün birja üzvü tərəfindən təqdim edilən sifarişin (ünvanlı əqd təklifinin) bu sifarişin (təklifin) ünvanlandığı birja üzvü tərəfindən təsdiq olunmasından sonra bağlanılmış hesab edilir.

29.11. Ünvanlı əqdlərin bağlanılması üçün təqdim edilən sifarişlər yalnız onun ünvanlandığı birja üzvü tərəfindən eyni şərtli əks sifarişin daxil edilməsi yolu ilə təsdiq oluna bilər. Belə təsdiq olmadıqda (eyni şərtli əks sifariş təqdim edilmədikdə) ünvanlı əqd bağlanılmır.

29.12. Ünvanlı əqdin bağlanılması üzrə təqdim edilmiş lakin təmin edilməmiş sifarişlər ticarət günün sonunda avtomatik olaraq ləğv edilir. Birja üzvü təmin edilməmiş sifarişlərini ticarət günü ərzində ləğv edə bilər.

29.13. Bu Qaydaların tələblərinə cavab verən sifarişlər ünvanlı əqdlərin bağlanılması üçün ticarət sistemində qeydiyyata alınır və ticarət əməliyyatlarında iştirak edir.

29.14. Bu Qaydaların 29-ci bəndi ilə digər müddəalar nəzərdə tutulmadıqda, bu qaydaların müddəaları ünvanlı əqdlərə şamil edilir.

## III HİSSƏ: XÜSUSİ MÜDDƏALAR

### Maddə 8
### MARKET MEYKER ƏMƏLİYYATLARI

**30. Marketmeyker statusunun verilməsi üçün meyarlar**

30.1. Aşağıdakı meyarlara cavab verən Birja üzvlərinə Birjanın İdarə Heyətinin qərarı ilə birjada ticarətə buraxılan qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə marketmeyker statusu verilə bilər:
30.1.1. Marketmeyker statusu qiymətli kağızların ticarəti üzrə verildikdə, market meyker yerli qiymətli kağızlar bazarında ən azı 1 (bir) il təcrübəyə malik olan azı 1 (bir) səlahiyyətli treyderə malik olmalıdır;
30.1.2. Marketmeyker statusu törəmə maliyyə alətlərinin ticarəti üzrə verildikdə, marketmeyker törəmə maliyyə alətləri bazarında ən azı 1 (bir) il təcrübəyə malik olan azı 2 (iki) səlahiyyətli treyderə malik olmalıdır;
30.1.3. Marketmeykerin adından çıxış edən səlahiyyətli treyderi market meykerlik etdiyi qiymətli kağızın emitentinin idarəetmə orqanının üzvü olmamalıdır.

30.2. Baza aktivlərinin qiyməti, gəlirliliyi, məzənnə fərqi və ya risk dərəcəsinin dəyişikliyinin alınıb-satılmasını nəzərdə tutan törəmə maliyyə alətləri üzrə marketmeykerlər aşağıdakı tələblərə cavab verməlidirlər:
30.2.1. Nizamnamə kapitalı ən azı 1 000 000 (bir milyon) manat olmalıdır;
30.2.2. Törəmə maliyyə alətlərinin ticarəti üzrə ən azı ən azı 5 (beş) il təcrübəyə malik 5 (beş) səlahiyyətli treyderi olmalıdır;
30.2.3. Birjada bu alətlərin ticarət olunduğu ticarət sisteminə birbaşa çıxışı olmalıdır;
30.2.4. Baza aktivlərinin ticarət olunduğu bazarlara (ilkin likvidlik mənbəyinə) birbaşa çıxışı olmalıdır;
30.2.5. Risklərin idarə edilməsi üzrə adekvat sistemə malik olmalıdır;
30.2.6. Marja ticarəti üzrə QKDK tərəfindən verilmiş müvafiq icazəyə malik olmalıdır;

**31. Marketmeyker statusunun verilməsi proseduru**

31.1. Marketmeyker statusunun əldə edilməsi üçün Birja üzvü bu barədə ərizə ilə Birjanın İdarə Heyətinə müraciət edir. Ərizəyə aşağıdakı sənədlər əlavə edilir:
31.1.1. Ərizəçinin bu Qaydaların 30-cu bəndinin tələblərinə cavab verməsini təsdiq edən sənədlər;
31.1.2. Marketmeyker fəaliyyəti ilə məşğul olmaq üçün müraciət forması (Əlavə №2);
31.1.3. Üzərinə götürdüyü gündəlik minimal alış həcmi öhdəliyinə bərabər miqdarda pul vəsaitinin birjanın hesabına köçürülməsini təsdiq edən sənəd və ya həmin həcmdə bank təminatı;
31.1.4. Marketmeykerin adından ticarətdə iştirak edəcək 30.1.3-cü bəndinin tələblərinə cavab verən səlahiyyətli treyderi barədə məlumat;

31.1.5. Marketmeykerin klirinq təşkilatında olan hesab nömrəsi;

31.2. Marketmeyker statusunun əldə edilməsinə dair ərizəyə onun təqdim edildiyi tarixdən 5 (beş) iş günü ərzində Birjanın İdarə Heyəti tərəfindən baxılır.

31.3. Birjanın İdarə Heyəti ərizəçinin müraciəti üzrə müsbət qərar qəbul etdikdə onunla market meyker müqaviləsi bağlanılır. Müqavilədə aşağıdakı müddəalar nəzərdə tutulur:
31.3.1. Marketmeyker öhdəliklərinin həcmi;
31.3.2. Kotirovka spredi (Birja tərəfindən hər bir alət üzrə təyin olunmuş minimal və maksimal qiymət həddindən artıq olmamaq şərti ilə);
31.3.3. Marketmeykerin öhdəliklərindən azad olunması şərtləri, əgər müqavilə üzrə belə şərtlər nəzərdə tutulmuşdursa;
31.3.4. Birja tərəfindən marketmeykerə tətbiq edilən güzəştlər və onların tətbiqi şərtləri;
31.3.5. Marketmeykerin adından ticarətdə iştirak edəcək treyderi barədə məlumat;
31.3.6. Marketmeykerin fəaliyyətinin predmeti olan qiymətli kağızlar;
31.3.7. Marketmeykerin öz öhdəliklərinin icrasına başlaması müddəti;
31.3.8. Marketmeykerin öhdəliklərinin qüvvədə olması müddəti;
31.3.9. Müqaviləyə əlavə və düzəlişlərin edilməsi və onların qüvvəyə minməsi şərtləri;
31.3.10. Marketmeykerin Birja üzvlüyü dayandırıldıqda, onun öhdəliklərinin digər birja üzvləri vasitəsi ilə yerinə yetirilməsi şərtləri.

31.4. Birjada ticarətə buraxılmış hər bir qiymətli kağız və törəmə maliyyə aləti üzrə bir və ya bir neçə marketmeyker təyin oluna bilər.

31.5. Hər bir marketmeyker statusunun verilməsi zamanı Birja bu barədə məlumatı açıqlayır. Məlumatda aşağıdakılar nəzərdə tutulur:
31.5.1. Qiymətli kağızların dövlət qeydiyyat nömrəsi və ya ISIN kodu (market meyker fəaliyyətinin predmeti törəmə maliyyə alətləri olduqda, alətin təsnifatı və ticarət simvolu);
31.5.2. Marketmeykerin adı;
31.5.3. Marketmeykerin alış və satış öhdəliklərinin həcmi;
31.5.4. Kotirovka spredinin minimal və maksimal hədləri.

## 32. Marketmeykerin öhdəlikləri

32.1. Marketmeyker müqavilədə göstərilmiş qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə gündəlik alış və satış qiymətləri müəyyənləşdirir, bu qiymətləri gündəlik olaraq Birja vasitəsilə elan edir. Qiymətlər bu Qaydalarla müəyyən edilmiş kotirovka spredi çərçivəsində olmalıdır;

32.2. Marketmeyker gündəlik olaraq marketmeyker müqaviləsində göstərilmiş qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə, bu Qaydaların və marketmeyker müqaviləsinin şərtlərinə uyğun olaraq Birjanın ticarət sistemində fasiləsiz ticarət fazası ərzində öz adından, öz hesabına alış və satış kotirovkalarını təqdim edir.

32.3. Marketmeykerin hesabında olan qiymətli kağızlar və ya törəmə maliyyə alətlərinin miqdarı Birja tərəfindən satış kotirovkası üzrə tələb olunan minimal həcm tələbindən az olduqda (və ya belə qiymətli kağızlar hesabda olmadıqda) market meyker satış kotirovkasını hesabda olan sözügüdən qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin miqdarı qədər təqdim etməlidir. Hesabda belə qiymətli olmadıqda market meyker satış kotirvkasının təqdim edilməsindən müvəqqəti olaraq azad edilir.

32.4. Marketmeyker müqavilədə göstərilmiş qiymətli kağızlar bu Qaydaların və market meyker müqaviləsinin şərtlərinə uyğun olaraq Birjanın ticarət sistemində təqdim etdiyi alış və satış kotirovkalarının icrasını təmin etməlidir.

32.5. Birjada ticarətə buraxılmış qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə alış və satış kotirovkalarının minimal həcmi bu qiymətli kağızlar üzrə Birja tərəfindən müəyyən edilir və açıqlanır.

32.6. Marketmeyker könüllü qaydada öz öhdəliklərindən artıq əqd bağlaya bilər.

32.7. Marketmeyker hər bir qiymətli kağız üzrə onun adından yalnız bir treyderin iştirakını təmin etməlidir;

32.8. Marketmeyker Birjanın ticarət qaydalarına, qiymətli kağızlar bazarının tənzimlənməsinə dair qanunvericilik aktlarına əməl etməlidir.

32.9. Marketmeyker minimal alış və satış kotirovkalarını fasiləsiz ticarət fazası ərzində, fasiləsiz ticarət fazası başladıqdan sonra 30 (otuz) dəqiqə ərzində ticarət sisteminə daxil edir.

32.10. Marketmeykerin bir qiymətli kağız və ya törəmə maliyyə aləti üzrə eyni zamanda bir alış və bir satış kotirovkası ticarətdə iştirak edə bilər. Bir ticarət günü ərzində market meyker tərəfindən eyni qiymətli kağız və ya törəmə maliyyə aləti üzrə digər alış və ya satış kotirovkası təqdim edildikdə, həmin market meyker tərəfindən bu qiymətli kağız və ya törəmə maliyyə aləti üzrə əvvəl daxil edilmiş lakin icra edilməmiş kotirovka və ya onun icra edilməmiş hissəsi ləğv edilməlidir.

32.11. Marketmeyker fasiləsiz ticarət fazası ərzində icra olunmamış kotirovkalarını dəyişdirə bilər, lakin bu zaman kotirovkanın dəyişdirilməsi müddəti 5 dəqiqədən artıq olmamalıdır.

32.12. Marketmeyker əqdləri nəticəsində yaranmış öhdəliklərin icrası marketmeyker ilə Birja arasında bağlanılmış marketmeyker müqaviləsində başqa hal nəzərdə tutulmadıqda, əqd bağlanıldıqdan sonra növbəti ticarət günü saat 16:15-dək həyata keçirilir;

32.13. Marketmeyker aşağıdakı hallarda öhdəliklərindən azad edilir:
32.13.1. Gündəlik nəzərdə tutulmuş öhdəlikləri təmin etdikdə;
32.13.2. Bu Qaydaların 32.3.-cü bəndinin müddəaları ilə nəzərdə tutulmuş hallarda;
32.13.3. Birjanın İdarə Heyətinin qərarı əsasında müəyyən olunmuş müddətə.

32.14. Marketmeyker bu fəaliyyəti bilavasitə həyata keçirən səlahiyyətli treyderlərinin dəyişməsi barədə dərhal Birjaya məlumat verməlidir.

32.15. Marketmeyker Birjanın müraciəti əsasında market meyker öhdəliklərini icra etdiyi depo hesabından çıxarışı Birjaya təqdim edir.

**33. Kotirovka spredi**

33.1. Marketmeyker öz öhdəliklərini yerinə yetirərkən və bu Qaydalara uyğun olaraq qiymətlər müəyyən edərkən aşağıda göstərilən qaydada hesablanmaqla kotirovka spredinə əməl etməlidir:
33.1.1. Səhmlər üzrə:

$$KS_{səhm} = \frac{Q^{yüksək}_{satış} - Q^{aşağı}_{alış}}{Q^{aşağı}_{alış}} \times 100\%$$

Burada, $KS_{səhm}$ market meykerin səhmlər üzrə kotirovka spredi üçün hazırkı mövqeyidir.

$Q^{yüksək}_{satış}$ müvafiq qiymətli kağızlara market meyker tərəfindən verilən ən yüksək satış qiymətidir;
$Q^{aşağı}_{alış}$ müvafiq qiymətli kağızlara market meyker tərəfindən verilən ən aşağı alış qiymətidir.

33 .1.2. İstiqrazlar üzrə:

$$KS_{istiqraz} = \frac{G^{yüksək}_{satış} - G^{aşağı}_{alış}}{G^{aşağı}_{alış}} \times 100\%$$

Burada, $KS_{istiqraz}$ market meykerin istiqrazlar üzrə kotirovka spredi üçün hazırkı mövqeyidir.

$G^{yüksək}_{satış}$ müvafiq qiymətli kağızlara market meyker tərəfindən verilən ən yüksək satış qiymətidir;
$G^{aşağı}_{alış}$ müvafiq qiymətli kağızlara market meyker tərəfindən verilən ən aşağı alış qiymətidir.

33.1.3. Törəmə maliyyə alətləri üzrə:

$$KS_{TMA} = \frac{Q^{yüksək}_{satış} - Q^{aşağı}_{alış}}{Q^{aşağı}_{alış}} \times 100\%$$

Burada, $KS_{TMA}$ market meykerin törəmə maliyyə alətləri üzrə kotirovka spredi üçün hazırkı mövqeyidir.

$Q^{yüksək}_{satış}$ müvafiq törəmə maliyyə alətinə market meyker tərəfindən verilən ən yüksək satış qiymətidir;
$Q^{aşağı}_{alış}$ müvafiq törəmə maliyyə alətinə market meyker tərəfindən verilən ən aşağı alış qiymətidir.

33.2. Kotirovka spredinin maksimal və minimal hədləri Birja tərəfindən ticarətə buraxılmış hər bir qiymətli kağız və törəmə maliyyə aləti üzrə ayrılıqda müəyyən olunur və açıqlanır.

**34. Marketmeyker statusunun dayandırılması və ya ləğvi**

34.1. Marketmeyker statusu aşağıdakı hallarda Birjanın İdarə Heyətinin qərarı ilə dayandırıla və ya ləğv edilə bilər:
34.1.1. Marketmeyker özünün qanunvericilik, bu Qaydalar və onunla bağlanmış müqavilədən irəli gələn öhdəliklərinə əməl etmədikdə, habelə qiymətlərlə manipulyasiya və öz statusundan sui-istifadə halları aşkarlandıqda;
34.1.2. Bazar iştirakçılarının maraqlarının müdafiəsi və bazarın təhlükəsizliyinin qurunması məqsədi ilə;
34.1.3. Marketmeyker bu statusu həyata keçirdiyi qiymətli kağızlar və ya törəmə maliyyə alətləri dövriyyədən çıxarıldıqda;
34.1.4. Marketmeykerin fəaliyyət müvafiq icra hakimiyyəti orqanı tərəfindən ləğv edildikdə;
34.1.5. Birja üzvü olan marketmeyker Birja üzvlüyündən çıxarıldıqda və ya üzvlüyü müvəqqəti dayandırıldıqda;
34.1.6. Marketmeykerlə bağlanmış müqavilənin müddəti bitdikdə və onun uzadılması barədə razılıq əldə edilmədikdə;
34.1.7. Könüllü şəkildə - marketmeykerlə bağlanmış müqavilənin vaxtından tez ləğv olunması barədə 30 gün əvvəl müraciət olunduqda;
34.1.8. Marketmeyker statusunun dayandırılması və ya onun ləğvi zamanı Birja ticarət iştirakçılarını və ictimaiyyəti məlumatlandırır.

**35. Marketmeyker tərəfindən qaydaların pozulmasına görə məsuliyyət**

35.1. Bu Qaydaların tələbləri market meyker tərəfindən pozulduğu halda Birjanın İdarə Heyəti ona qarşı aşağıdakı məsuliyyət tədbirləri tətbiq edə bilər:
35.1.1. xəbərdarlıq;
35.1.2. cərimə;
35.1.3. statusun ləğv edilməsi.
35.2. Öz öhdəliklərinin pozulmasına görə marketmeyker Birjanın qərarı əsasında üzərinə götürdüyü cəmi net öhdəliklərin (alış öhdəliyi + satış öhdəliyi ) həcminin 0,5 faizi miqdarda cərimə edilir. Cərimənin ödənilməsi müvafiq qərarın çıxarıldığı tarixdən 5 (beş) iş günü ərzində marketmeyker tərəfindən icra edilməlidir.
35.3. Marketmeyker tərəfindən öz öhdəliklərinin pozulması halları aradan qaldırılmadıqda və ya ay ərzində həmin pozuntular yenidən təkrar edildikdə, Birjanın qərarı ilə marketmeykerlə bağlanmış market meyker müqaviləsi ləğv edilə bilər.

35.4. Birja marketmeykerə qarşı tətbiq etdiyi məsuliyyət tədbirləri barədə 1 (bir) iş günü ərzində QKDK-nı məlumatlandırır.

35.5. Birja marketmeykerə qarşı tətbiq etdiyi məsuliyyət tədbirləri barədə məlumatı açıqlaya bilər.

**Maddə 9**
**KROSS ƏQDLƏR**

**36. Kross əqdlərin bağlanılması üzrə ümumi müddəalar**

36.1. Bir şəxsin eyni bir əqd üzrə həm alıcı, həm də satıcı qismində çıxış etməsi (eyni bir şəxsin hesabından kross əqdlərin bağlanılması) qadağan edilir. Belə əqdlərə səbəb ola biləcək sifarişlər və kotirovkalar Birjanın ticarət sistemi tərəfindən rədd edilir.

36.2. Kross əqdlər müxtəlif şəxslərin hesablarından bağlanıldıqda, əqd barədə məlumat kross əqd bağlanılmazdan öncə, bu əqdi bağlayacaq birja üzvü tərəfindən ticarət sistemi vasitəsi ilə digər ticarət iştirakçılarına bu Qaydaların müddəalarına uyğun olaraq açıqlanmalıdır.

36.3. Bu Qaydaların kross əqdlərə dair müddəaları market meyker tərəfindən təqdim edilən iki tərəfli kotirovkalara (alış və satış istiqamətinin eyni vaxtda daxil edilməsi) şamil edilmir.

36.4. Bu Qaydaların 36.1.-ci bəndi istisna olmaqla, kross əqdlərə dair digər müddəaları ünvanlı əqdlərə şamil edilmir.

36.5. Bu Qaydaların kross əqdlərə dair müddəaları yalnız səhmlərin təkrar bazar ticarətinə şamil olunur.

**37. Kross sifarişlərin açıqlanması**

37.1. Bu Qaydaların tələblərinə uyğun gələn kross əqdlər fasiləsiz ticarət fazası ərzində bu əqdin bağlanılmasında iştirak edəcək sifarişlərin digər ticarət iştirakçılarına açıqlanmasından sonra bağlanıla bilər.

37.2. Kross əqdin bağlanılmasında iştirak edəcək sifarişlər (kross sifarişlər) 60 (altmış) dəqiqə davam edən gözləmə müddəti ərzində digər ticarət iştirakçılarına açıqlanmalıdır. Kross sifarişlərin bu müddət ərzində ləğv edilməsinə və ya dəyişdirilməsinə yol verilmir.

37.3. Gözləmə müddəti bitdikdən sonra açıqlanmış kross sifarişlər, bu sifarişləri açıqlamış birja üzvü tərəfindən 10 (on) dəqiqə ərzində ticarət sisteminə daxil edilməlidir. Daxil edilən kross sifarişlər bu qaydaların 34.2.-ci bəndinə müvafiq olaraq öncədən açıqlanmış məlumatla identik olmalıdır.

37.4. Kross sifarişlər yalnız limit qiyməti və İcra Et və Saxla (İES) şərti ilə təqdim edilə bilər.

37.5. Bu qaydaların sifarişlərə şamil olunan bütün müddəaları kross sifarişlərə də şamil olunur.

37.6. Kross sifarişlər son kross sifarişin qeydiyyata alınması üçün nəzərdə tutulmuş vaxtadək təqdim edilə bilər. Son kross sifarişin qeydiyyata alınması üçün nəzərdə tutulmuş vaxt aşağıdakı qaydada hesablanır:

Kv = Tb - Gm

Kv - son kross sifarişin qeydiyyata alınması üçün nəzərdə tutulmuş vaxt;

Tb - ticarət sessiyasının bitmə vaxtı;

Gm - gözləmə müddətidir.

**38. Kross əqdlərin bağlanılması**

38.1. Açıqlanmış kross sifarişlər gözləmə müddəti ərzində bloklaşdırılır və bu sifarişlər ticarət əməliyyatlarında iştirak etmir.

38.2. Gözləmə müddəti ərzində digər birja üzvləri tərəfindən sifarişlər təqdim edilə bilər.

38.3. Gözləmə müddəti bitdikdən sonra ilkin olaraq kross sifarişlər Birjanın ticarət sistemində digər birja üzvləri tərəfindən təqdim edilmiş sifarişlərə qarşı təmin edilir. Bu zaman əqdlər ən yaxşı qiymət prinsipi əsasında, fasiləsiz ticarət üsulu ilə bağlanılır.

38.4. Gözləmə müddəti bitdikdən sonra Birjanın ticarət sistemində kross sifarişin təqdim edildiyi qiymətdən daha yaxşı qiymətlə təqdim edilmiş sifariş mövcud olmadıqda, kross sifariş və ya onun icra olunmamış hissəsi ticarət sistemində birja üzvünün ilkin olaraq təqdim etdiyi əks sifarişə qarşı təmin edilir.

38.5. Kross sifarişlər bu Qaydaların 38.4-cü bəndi ilə nəzərdə tutulmamış icra şərti ilə təqdim edildikdə, bu sifarişlərin icra olunması zamanı sifarişin icra şərti İcra Et və Saxla (İES) icra şərti olaraq dəyişdirilir.

**39. Məlumatların açıqlanması və hesabatlılıq**

39.1. Birjanın ticarət sistemində kross sifarişlər və kross əqdlər xüsusi olaraq qeyd olunur.

39.2. Kross əqdlərə dair məlumatlar Birjanın məlumatların açıqlanmasına dair daxili qaydalarına müvafiq olaraq açıqlanır və təqdim olunur.

## Maddə 10
## REPO ƏMƏLİYYATLARI

**40. Repo əməliyyatının xüsusiyyətləri**

40.1. Birjada Repo əməliyyatı Repo Baş Razılaşması əsasında, klirinq təşkilatının iştirakı ilə

həyata keçirilir.

40.2. Repo əməliyyatı Repo Baş Razılaşmasını imzalamış birja üzvləri arasında repo iştirakçılarının müştəri hesabından həyata keçirilir.

40.3. Repo əməliyyatı üzrə əmələ gələn öhdəliklərin icra olunmasında təminatçı kimi klirinq təşkilatı çıxış edir. Repo əməliyyatı üzrə təminatların həcmi klirinq təşkilatı tərəfindən hesablanır.

40.4. Hər bir Repo əməliyyatı Repo şəhadətnaməsi ilə təsdiq edilir (Əlavə №3).

40.5. Birjada keçirilən Repo əməliyyatları aşağıdakı növlərə bölünür:
40.5.1. Azərbaycan Respublikasının Mərkəzi Bankının kontragent qismində çıxış etdiyi Repo və Əks-repo əməliyyatları;
40.5.2. Banklar arası Repo əməliyyatları.

40.6. Bu Qaydalarla digər hallar nəzərdə tutulmadıqda Repo əməliyyatlarına şamil edilən müddəalar Əks-repo əməliyyatlarına da şamil edilir.

**41. Repo müddəti**

41.1. Repo əməliyyatlarının həyata keçirilməsinin müddəti Repo iştirakçıları tərəfindən müəyyən olunur. Repo əməliyyatının həyata keçirilməsinin maksimum müddətinə Birja tərəfindən məhdudiyyət qoyula bilər.

41.2. Repo müddəti aşağıdakı qaydada hesablanır:

***Repo bağlanış əqdi tarixi - Repo açılış əqdi tarixi = Repo müddəti***

41.3. Reponun bağlanma tarixi Reponun predmeti olan qiymətli kağızların ödəniş, faiz ödənişi və ya geri satınalınmasının başlanması tarixindən ən azı beş gün əvvəl olmalıdır. Repo açılış əqdi və Repo bağlanış əqdi eyni tarixdə həyata keçirildikdə, Reponun müddəti bir gün hesab edilir.

41.4. Repo müddəti ərzində Reponun predmeti olan qiymətli kağızlarla təsbit edilmiş hüquqlar Repo açılış əqdi zamanı Repo satıcısı kimi çıxış edən şəxsə məxsusdur.

**42. Repo predmetinin müəyyən olunması**

42.1. Repo predmeti Birjada ticarətə buraxılmış aşağıdakı investisiya qiymətli kağızlardır:
42.1.1. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən buraxılan dövlət istiqrazları;
42.1.2. Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən buraxılan notlar;
42.1.3. Azərbaycan İpoteka Fondu tərəfindən buraxılan ipoteka istiqrazları;
42.1.4. Dövlət təminatı ilə buraxılmış istiqrazlar;

42.1.5. Birjada market-meyker tərəfindən likvidliyi təmin olunmuş digər investisiya qiymətli kağızları.
42.2. Repo predmeti ola bilən qiymətli kağızların siyahısı kliring təşkilatı ilə razılaşdırmaqla Birja tərəfindən müəyyən olunur. Reponun predmeti olan qiymətli kağızların siyahısı Birjanın ticarət sistemi və internet səhifəsi vasitəsi ilə açıqlanır.

**43. Repo ticarəti**

43.1. Birjada keçirilən Repo əməliyyatları bu Qaydaların 6-cı maddəsi ilə nəzərdə tutulmuş fasiləsiz ticarət üsulu ilə təşkil olunur. İstisna olaraq, Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən zəruri hallarda bu Qaydaların 40.5.1.-ci bəndində nəzərdə tutulmuş Repo və Əks-repo əməliyyatları üzrə bir qiymətli hərrac üsulu (birbaşa hərrac üsulu) və ya rəqabətli hərrac üsulu (dolayı hərrac üsulu) ilə hərraclar təşkil edilə bilər.

43.2. Repo ticarəti Birjanın ticarət reqlamentinə uyğun olaraq həyata keçirilir.

43.3. Repo sifarişləri növünə görə limit qiymətli sifariş və bazar qiymətli sifariş ola bilər.
43.4. Limitli sifarişlər təqdim olunmuş repo faiz dərəcəsi və ya Birjada mövcud olan daha yaxşı faiz dərəcəsi ilə, bu Qaydalara müvafiq olaraq icra olunur. Limit qiymətli repo sifarişdə aşağıdakı şərtlər əks olunur:

43.4.1. Repo predmeti olan investisiya qiymətli kağızları;
43.4.2. Sifarişin istiqaməti (Repo açılış əqdində qiymətli kağızların alışı və ya satışı);
43.4.3. Repo predmetinin sayı və ya Repo məbləği;
43.4.4. Repo müddəti;
43.4.5. Repo faiz dərəcəsi;
43.4.6. Birja üzvünün və ya birja üzvünün müştərisinin bu Qaydaların 40.2.-ci bəndinin tələblərinə uyğun gələn müştərisinin hesab nömrəsi.

43.5. Bazar qiymətli repo sifarişi sifarişlər kitabında mövcud olan repo faiz dərəcəsi ilə, bu Qaydalara müvafiq olaraq icra olunur. Bazar qiymətli repo sifarişində aşağıdakı şərtlər əks olunur:
43.5.1. Repo predmeti olan investisiya qiymətli kağızları;
43.5.2. Sifarişin istiqaməti (Repo açılış əqdində qiymətli kağızların alışı və ya satışı);
43.5.3. Repo predmetinin sayı və ya Repo məbləği;
43.5.4. Repo müddəti;
43.5.5. Birja üzvünün və ya birja üzvünün müştərisinin bu Qaydaların 40.2.-ci bəndinin tələblərinə uyğun gələn müştərisinin hesab nömrəsi.

43.6. Repo sifarişlərinin təmin olunması ən yaxşı repo faiz dərəcəsi prinsipi ilə həyata keçirilir.

43.7. Repo sifarişləri təmin edilənə və ya ləğv edilənədək qüvvədə olur. Birja üzvü təqdim etdiyi Repo sifarişlərini və ya onun icra olunmamış hissəsini birjanın ticarət reqlamentinə əsasən repo ticarətinin təşkil edildiyi müddət ərzində ləğv edə bilər. Repo ticarəti müddətinin

sonunda bütün təmin edilməmiş sifarişlər avtomatik olaraq ləğv olunur.

**44. Repo açılış və bağlanış əqdi qiymətlərinin hesablanması**

44.1. Repo açılış əqdi Repo açılış qiyməti ilə bağlanılır. Repo açılış qiyməti Repo predmeti olan investisiya qiymətli kağızlarının cari qiymətinin bu Qaydaların 45-ci bəndi ilə müəyyən olunmuş təminat əmsalı həcmində diskontlaşdırılması yolu ilə, Birja tərəfindən hesablanır. Repo açılış əqdinin qiyməti aşağıdakı qaydada hesablanır:

$$P_a = P_c\left(1 - \frac{k}{100}\right)$$

Pa – Repo açılış əqdinin qiyməti;
Pc – Repo predmeti olan investisiya qiymətli kağızlarının cari qiyməti;
k – təminat əmsalı (faizlə).

44.2. Repo predmetinin cari qiyməti aşağıdakı düstur əsasında hesablanır:
Faizli istiqrazlar üzrə:

$$P_c = N \times \left(1 + \frac{(t_1 - t_0) \times C\%}{T}\right)$$

Pc – Repo predmetinin cari qiyməti;
N – Repo predmeti olan istiqrazın nominal dəyəri (pul ekvivalentində);
t1 – Repo açılış əqdinin tarixi;
t0 – Repo predmeti olan istiqrazın son faiz ödənişi tarixi;
C – Repo predmeti olan istiqrazın faiz dərəcəsi;
T – 360 və ya 365 (Repo predmeti olan istiqrazların buraxılış şərtlərindən asılı olaraq).
Diskontlu istiqrazlar üzrə:

$$P_c = \left(\frac{T \times N}{(t_2 - t_1) \times Y\% + T}\right)$$

Pc – Repo predmetinin cari qiyməti;
N – Repo predmeti olan istiqrazın nominal dəyəri (pul ekvivalentində);
t2 – Repo predmeti olan istiqrazın ödəniş tarixi;
t1 – Repo açılış əqdinin tarixi;
Y – Repo predmeti olan istiqrazın Birjada bağlanılmış əqdlər üzrə orta çəkili qiyməti əsasında hesablanmış faiz dərəcəsi;
T – 360 və ya 365 (Repo predmeti olan istiqrazların buraxılış şərtlərindən asılı olaraq.
Səhmlər üzrə cari qiymət Repo predmeti olan investisiya qiymətli kağızları ilə Birjada bağlanılmış əqdlərin orta çəkili qiyməti və ya market meyker kotirovkaları əsasında müəyyən edilir.

44.3. Repo bağlanış əqdi Repo bağlanış qiyməti ilə təmin edilir. Repo bağlanış əqdinin qiyməti Birja tərəfindən aşağıdakı qaydada hesablanır:

$$P_b = P_a \times \left(1 + \frac{t \times r\%}{T}\right)$$

Pb – Repo bağlanış əqdinin qiyməti;
Pa – Repo açılış əqdinin qiyməti;

t – Repo müddəti (günlərlə);
r – Repo faiz dərəcəsi;
T – 360 və ya 365 (Repo predmeti olan istiqrazların buraxılış şərtlərindən asılı olaraq.
44.4. Repo faiz dərəcəsi Birja tərəfindən aşağıdakı qaydada hesablanır:

$$r = \left(\frac{P_b - P_a}{P_a}\right) \times \frac{T}{t} \times 100$$

r – Repo faiz dərəcəsi;
Pb – Repo bağlanış əqdinin qiyməti;
Pa – Repo açılış əqdinin qiyməti;
t – Repo müddəti (günlərlə);
T – 360 və ya 365 (Repo predmeti olan istiqrazların buraxılış şərtlərindən asılı olaraq.
44.5. Repo açılış və Repo bağlanış əqdlərinin qiymətləri nominaldan faizlə əks olunur və 0.0001-dək yuvarlaqlaşdırılır.

**45. Təminat əmsalı**

45.1. Repo müddəti ərzində Repo predmeti olan investisiya qiymətli kağızlarının bazar qiymətinin aşağı düşməsi zamanı repo üzrə öhdəliklərin yerinə yetirilməməsi risklərinin qarşısının alınması məqsədi ilə Birja Repo açılış qiymətinin hesablanması zamanı təminat əmsalından istifadə edir. Təminat əmsalı aşağıdakı qaydada hesablanır:

$$k = \frac{P_c - P_a}{P_c} \times 100$$

Pa – Repo açılış əqdinin qiyməti;
Pc – Repo predmeti olan investisiya qiymətli kağızlarının cari qiyməti;
k – təminat əmsalı (faizlə).

45.2. Təminat əmsalı bu Qaydaların 42-cu bəndi ilə müəyyən olunmuş investisiya qiymətli kağızları üzrə klirinq təşkilatı ilə razılaşdırılaraq birja tərəfindən müəyyən olunur.

**46. Repo əməliyyatı üzrə təminatın həcmi və hesablaşmaların keçirilməsi**

46.1. Repo əməliyyatı üzrə təminat olaraq Repo açılış əqdi zamanı Repo predmeti olan investisiya qiymətli kağızları çıxış edir.

46.2. Repo açılış əqdi zamanı Repo predmeti olan investisiya qiymətli kağızları Birjada Repo əqdinin bağlanılması təsdiq edildikdən sonra Repo satıcısının hesabında klirinq təşkilatının tapşırığına əsasən depozitar tərəfindən dondurulur.

46.3. Repo müddəti ərzində Repo təminatının Birja tərəfindən hesablanmış bazar dəyəri Repo bağlanış əqdi qiymətinə nəzərən aşağı düşdükdə Repo satıcısı klirinq təşkilatına əlavə təminatlar təqdim etməlidir. Əlavə təminatlar pul və ya bu Qaydaların 42-ci bəndində göstərilən qiymətli kağızlar ola bilər. Repo təminatının Birja tərəfindən hesablanmış bazar dəyəri Birjada bağlanılmış əqdlərin orta çəkili qiyməti əsasında hesablanır və gündəlik olaraq Birjanın ticarət sistemi vasitəsi ilə açıqlanır. Əlavə təminatın həcmi aşağıdakı qaydada

hesablanır:

$$M_c = QP_m - \left[CF_1 \times \left(1 + \frac{t' \times r\%}{T}\right)\right]$$

Mc - əlavə təminat məbləği (manatla);
Q – Repo predmeti olan investisiya qiymətli kağızlarının həcmi, əlavə təminatlar daxil olmaqla (ədəd);
Pm - Repo predmeti olan investisiya qiymətli kağızlarının bazar dəyəri;
CF1 – Repo açılış əqdinin məbləği;
t' – Repo açılış əqdi tarixindən əlavə təminatın hesablandığı tarixədək olan günlərin sayı;
r – Repo faiz dərəcəsi;
T – 360 və ya 365 (Repo predmeti olan istiqrazların buraxılış şərtlərindən asılı olaraq.
46.4. Əlavə təminat olaraq pul vəsaitləri çıxış etdikdə, əlavə təminatın məbləği klirinq təşkilatı tərəfindən repo satıcının müvafiq hesabında dondurulur.
46.5. Əlavə təminat olaraq bu Qaydaların 42-ci bəndində göstərilən qiymətli kağızlar olduqda əlavə təminatın məbləği, əlavə təminatın hesablandığı günün repo açılış qiymətinə bölünərək hesablanır. Hesablamalar zamanı əlavə təminat qismində çıxış edəcək qiymətli kağızların həcmi tam ədədədək yuvarlaqlaşdırılır. Əlavə təminat qismində çıxış edən qiymətli kağızlar Repo satıcısının hesabında klirinq təşkilatının tapşırığına əsasən depozitar tərəfindən dondurulur.

46.6. Repo satıcısının hesabında dondurulmuş qiymətli kağızların dondurmadan azad edilməsi yalnız klirinq təşkilatının tapşırığına əsasən depozitar tərəfindən həyata keçirilir.

46.7. Repo satıcısının hesabında dondurulmuş qiymətli kağızların o cümlədən, əlavə təminat kimi təqdim edilmiş pul vəsaitlərinin dondurmadan azad edilməsi aşağıdakı hallarda həyata keçirilə bilər:
46.7.1. Repo bağlanış əqdi icra olunduqda;
46.7.2. Məhkəmənin qərarı ilə;
46.7.3. Qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda.

46.8. Repo əməliyyatları üzrə hesablaşmalar t+0 tarixində klirinq təşkilatı tərəfindən həyata keçirilir.

46.9. Reponun bağlanış tarixi qeyri-iş gününə düşdüyü halda, əqd növbəti ilk iş günü öhdəliklər dəyişilmədən icra edilir.
46.10 . Repo əməliyyatı üzrə öhdəliklərin qismən icra olunmasına yol verilmir.

**47. Repo Baş Razılaşması**

47.1. Repo Baş Razılaşmasında aşağıdakı müddəalar öz əksini tapmalıdır:
47.1.1. Razılaşmanın predmeti;
47.1.2. Repo əməliyyatlarının bağlanması və öhdəliklərin icrası şərtləri;
47.1.3. Repo açılış və bağlanış qiymətlərinin hesablanması qaydası;
47.1.4. Repo əməliyyatları üzrə öhdəliklərin müəyyən edilməsi qaydası;

47.1.5. Repo əməliyyatı üzrə təminatların formalaşması qaydası;
47.1.6. Repo əməliyyatı üzrə öhdəliklər yerinə yetirilmədiyi təqdirdə görüləcək tədbirlər;
47.1.7. Məsuliyyət məsələləri;
47.1.8. Tərəflərin zəruri hesab etdiyi digər müddəalar.

**48. Repo əməliyyatları üzrə öhdəliklərin icrasına nəzarət**

48.1. Repo satıcısı Repo bağlanış əqdi üzrə öz öhdəliklərini Repo bağlanış əqdi tarixində ticarət sessiyasının sonunadək yerinə yetirmədikdə, Birja tərəfindən ona qarşı aşağıdakı sanksiyalar tətbiq edilir:
48.1.1. Bir günlük Repo faiz dərəcəsi həcmində maliyyə sanksiyası;
48.1.2. Repo bağlanış əqdinin 0.1% həcminədək maliyyə sanksiyası;
48.1.3. Birja üzvünün və ya onun müştərisinin Repo əməliyyatlarının keçirilməsindən müəyyən müddətə kənarlaşdırılması;
48.1.4. Repo Baş Razılaşmasının ləğv olunması.

48.2. Repo satıcı öz öhdəliklərini növbəti gün saat 12:00-dək yerinə yetirmədikdə Repo açılış əqdi zamanı Repo predmeti olan investisiya qiymətli kağızları klirinq təşkilatı tərəfindən Birjada satışa çıxarılır. Repo predmeti olan investisiya qiymətli kağızların satışı Repo bağlanış əqdi üzrə öhdəliklərin icra edilməsi üçün yetərli olmadıqda, Repo əməliyyatı üzrə təminat kimi çıxış edən digər qiymətli kağızlar da eyni qaydada satışa çıxarıla bilər.

48.3. Repo predmeti olan qiymətli kağızların klirinq təşkilatı tərəfindən satışı Repo Baş Razılaşmasına uyğun həyata keçirilir.

**49. Repo əməliyyatları üzrə məlumatların açıqlanması və hesabatlılıq**

49.1. Birja Repo əməliyyatları üzrə aşağıdakı məlumatları açıqlayır:
49.1.1. Repo predmeti olan investisiya qiymətli kağızları;
49.1.2. Təminat əmsalı (faizlə);
49.1.3. Repo predmeti ola bilən investisiya qiymətli kağızlarının cari qiyməti;
49.1.4. Repo açılış qiyməti;

49.2. Repo əməliyyatlarına dair məlumatlar Birjanın məlumatların açıqlanmasına dair daxili Qaydalarına və Repo Baş Razılaşmasına müvafiq olaraq açıqlanır və təqdim olunur.

## Maddə 11
## İNVESTİSİYA QİYMƏTLİ KAĞIZLARININ YERLƏŞDİRİLMƏSİ

**50. İnvestisiya qiymətli kağızlarının yerləşdirilməsi üzrə ümumi müddəalar**

50.1. İnvestisiya qiymətli kağızlarının yerləşdirilməsi kütləvi təklif və ya qapalı yerləşdirmə üsulu ilə həyata keçirilir.

50.2. İnvestisiya qiymətli kağızlarının kütləvi təklif üsulu ilə yerləşdirilməsi bu qiymətli kağızların növündən asılı olaraq abunə yazılışı və ya hərrac qaydasında təşkil oluna bilər.

50.3. İnvestisiya qiymətli kağızlarının yerləşdirilməsinə bu qiymətli kağızların Birjada listinqə daxil edilməsindən sonra başlanıla bilər.

50.4. İnvestisiya qiymətli kağızlarının yerləşdirilməsi zamanı qiymətli kağızların satıcısı qismində birja üzvü (anderrayter) vasitəsi ilə bu qiymətli kağızların Emitenti çıxış edir.

50.5. Digər qiymətli kağızların yerləşdirilməsi Birjanın İdarə heyətinin qərarı ilə bu Qaydaların 11-ci maddəsinin müddəaları əsasında həyata keçirilir.

**51. İnvestisiya qiymətli kağızlarının abunə yazılışı qaydasında yerləşdirilməsi**

51.1. İnvestisiya qiymətli kağızlarının abunə yazılışı qaydasında yerləşdirilməsi Birjada bu məqsədlərlə yaradılmış xüsusi bazarda, birjanın ticarət reqlamentinə uyğun olaraq, bu Qaydaların 6-cı maddəsi ilə nəzərdə tutulmuş fasiləsiz ticarət üsulu ilə həyata keçirilir.

51.2. İnvestisiya qiymətli kağızlarının abunə yazılışının keçirilməsi müddəti abunə yazılışının başlanması barədə elanın dərc olunduğu tarixdən 3 (üç) aydan çox olmamalıdır.

51.3. Abunə yazılışının başlanmasından ən azı 1 (bir) iş günü öncə qiymətli kağızların Birjanın listinq qaydalarına müvafiq olaraq listinqə daxil edilməsi haqqında ərizə, qanunvericiliyə uyğun olaraq tərtib edilmiş emissiya prospekti (və ya informasiya memorandumu) və abunə yazılışının başlanması haqqında məlumat Emitent tərəfindən Birjaya təqdim edilməlidir. Abunə yazılışının başlanması haqqında məlumat kütləvi informasiya vasitələrində, qiymətli kağızlara abunə yazılışını həyata keçirən anderrayterin internet səhifəsində, Azərbaycan Respublikasının qiymətli kağızlar bazarında məlumatların açıqlanması üzrə vahid məlumat resursunda açıqlanmalıdır.

51.4. Abunə yazılışının başlanması haqqında məlumatda aşağıdakılar öz əksini tapmalıdır:
51.4.1. Emitentin adı;
51.4.2. Qiymətli kağızların qeydiyyat nömrəsi, məcmu nominal dəyəri, qiyməti (qiymət müəyyən edilmədiyi halda emissiya prospektində göstərilən qiymət dəhlizi);
51.4.3. Qiymətli kağızların növü;
51.4.4. Abunə yazılışının başlama və başa çatma tarixləri;
51.4.5. Emissiya prospektinin əldə edilməsinin mümkün olduğu yerlər.

51.5. Birja abunə yazılışının başlanması haqqında məlumatı və qanunvericiliyə uyğun olaraq tərtib edilmiş emissiya prospektini özünün internet səhifəsində açıqlayır.

51.6. Abunə yazılışı başa çatdıqdan və qiymətli kağızlar Birjada listinqə daxil edildikdən sonra 2 (iki) iş günü ərzində emitent və ya anderrayter qiymətli kağızların yerləşdirilməsinin

başlanması tarixi və qiymətli kağızların yerləşdirilməsi qiyməti (emissiya prospektində investisiya qiymətli kağızların qiyməti müəyyən edilmədikdə) barədə məlumatı Birjaya təqdim etməli və qanunvericiliyə müvafiq olaraq açıqlamalıdır. Abunə yazılışı başa çatdıqdan sonra 5 (beş) iş günü ərzində emitent və yerləşdirməni həyata keçirən anderrayter qiymətli kağızların yerləşdirilməsinə başlamalıdırlar.

51.7. Birja bu Qaydaların 51.6-cı bəndində göstərilən məlumatları aldıqdan sonra 1 (bir) iş günü ərzində özünün internet səhifəsi vasitəsi ilə açıqlayır.

51.8. Yerləşdirmə müddəti ərzində anderrayter abunə yazılışının yekunları üzrə alış sifarişlərini və yerləşdirmə üzrə satış sifarişini (sifarişlərini) Birjanın ticarət sisteminə daxil edir. Sifarişlər bu Qaydalara müvafiq olaraq yalnız limit qiyməti ilə və „İcra et və saxla" şərti ilə təqdim edilə bilər. Sifarişlərin qiyməti bu Qaydaların 51.8.-ci bəndinin müddəalarına əsasən açıqlanmış qiymət olmalıdır.

51.9. Sifarişlər investorlar tərəfindən qiymətli kağızlarının dəyəri qanunvericiliyə müvafiq olaraq ödənildikdən sonra ticarət sisteminə daxil edilə bilər.

51.10. Kütləvi təklif olunan səhmlərin yerləşdirilməsi zamanı üstünlük hüququ nəzərdə tutulduqda, yerləşdirmənin başlandığı ilk 2 (iki) iş günü ərzində üstünlük hüququna malik olan səhmdarların arasında səhmlərin yerləşdirilməsi həyata keçirilməlidir. Səhmdarlar səhmdar cəmiyyətinin səhmlərini almaqda üstünlük hüququna malik olduqda, həmin səhmlərin cəmiyyətin nizamnamə kapitalında səhmdarların malik olduqları paya mütənasib şəkildə yerləşdirilməsi Mərkəzi Depozitar və anderrayter tərəfindən yoxlanılır.

51.11. Abunə qaydasında yerləşdirilmə zamanı qiymətli kağızların yerləşdirməsi müddəti 7 (yeddi) iş günündən çox ola bilməz.

51.12. Ticarət günün sonunda bütün icra edilməmiş sifarişlər avtomatik olaraq ləğv edilir.

**52. İnvestisiya qiymətli kağızlarının hərrac qaydasında yerləşdirilməsi**

52.1. İstiqrazlar, abunə yazılışı keçirilmədən bu Qaydaların 6-cı maddəsi ilə nəzərdə tutulmuş Bir qiymətli hərrac üsulu (birbaşa hərrac üsulu) və Rəqabətli hərrac üsulu (dolayı hərrac üsulu) ilə yerləşdirilə bilər.

52.2. İstiqrazların hərrac qaydasında yerləşdirilməsi zamanı, emissiya prospektində istiqrazların satış qiymətinin hərracdan əvvəl elan olunması nəzərdə tutulduqda bir qiymətli hərrac üsulu (birbaşa hərrac üsulu), digər hallarda rəqabətli hərrac üsulu (dolayı hərrac üsulu) tətbiq edilir.

52.3. İstiqrazların hərrac qaydasında yerləşdirilməsi Birjada bu məqsədlərlə yaradılmış xüsusi bazarda, birjanın ticarət reqlamentinə uyğun olaraq həyata keçirilir.

52.4. Hərrac qaydasında yerləşdirilmə zamanı istiqrazların yerləşdirilməsi müddəti 1 (bir) iş günündən çox ola bilməz.

52.5. İstiqrazların hərrac qaydasında yerləşdirilməsinin başlanmasından ən azı 5 (beş) iş günü öncə qiymətli kağızların Birjanın listinq qaydalarına müvafiq olaraq listinqə daxil edilməsi haqqında ərizə, qanunvericiliyə uyğun olaraq tərtib edilmiş emissiya prospekti (və ya informasiya memorandumu) Emitent tərəfindən Birjaya təqdim edilməlidir.

52.6. İstiqrazlar Birjada listinqə daxil edildikdən sonra, qiymətli kağızların yerləşdirilməsinə başlanılması tarixinə ən azı 2 (iki) iş günü qalmış emitent və ya anderrayter qiymətli kağızların yerləşdirilməsinin başlanması tarixini və hərracın keçirilməsi şərtləri barədə məlumatı Birjaya təqdim etməli və qanunvericiliyə müvafiq olaraq açıqlamalıdır.

52.7. Hərracın keçirilməsinin şərtləri barədə məlumatda aşağıdakılar əks olunmalıdır:
52.7.1. Hərracın keçirilməsi tarixi;
52.7.2. Qiymətli kağızların qeydiyyat nömrəsi;
52.7.3. Təklif olunan istiqrazların məbləği;
52.7.4. Qeyri-rəqabətli sifarişlərin ümumi emissiya həcminə nəzərən maksimal məbləği
52.7.5. Bir istiqrazın satış qiyməti (emissiya prospektində bu qiymətin hərracdan əvvəl elan olunması nəzərdə tutulduqda).

52.8. Birja bu Qaydaların 52.7-ci bəndində göstərilən məlumatları aldıqdan sonra 1 (bir) iş günü ərzində özünün internet səhifəsi vasitəsi ilə açıqlayır.

52.9. Yerləşdirilmə günü Birjanın ticarət reqlamentinə uyğun olaraq sifarişlərin qəbulu üçün nəzərdə tutulmuş müddət ərzində birja üzvləri istiqrazların alınması (geriyə satış hərracı zamanı satılması) üçün sifarişləri ticarət sisteminə daxil edirlər.

52.10. Sifarişlər investorlar tərəfindən qiymətli kağızlarının dəyəri qanunvericiliyə müvafiq olaraq ödənildikdən sonra ticarət sisteminə daxil edilə bilər.

52.11. Hərrac zamanı yalnız rəqabətli və qeyri-rəqabətli sifarişlər daxil edilə bilər. Sifarişlər yalnız „İcra et və saxla” şərti ilə təqdim edilə bilər.

52.12. Hərrac zamanı hər bir investorun hesabından təqdim edilmiş qeyri-rəqabətli sifarişlər, onların hesabında təqdim edilmiş rəqabətli sifarişlərin 20%-dən artıq ola bilməz.

52.13. Hərrac zamanı sifarişlərin qəbul edilməsi müddətinin sonunda Birja təqdim olunmuş sifarişlərin reyestrini anderrayterə təqdim edir və ya onun ticarət sistemi vasitəsi ilə bu məlumata çıxışını təmin edir. Hərrac zamanı təqdim olunmuş sifarişlərin reyestrində ən azı aşağıdakı məlumatlar əks olunur:
52.13.1. Hər bir qiymət üzrə təqdim edilmiş sifarişlərin sayı və məbləği;
52.13.2. Təqdim edilmiş rəqabətli sifarişlər üzrə qiymətli kağızların sayı;

52.13.3.Rəqabətli və qeyri-rəqabətli sifarişlərin məbləği.

52.14. Hərrac zamanı sifarişlərin qəbulu müddəti bitdikdən sonra 1 (bir) iş günü ərzində emitent və ya anderrayter təqdim edilmiş sifarişlər üzrə hərracda təmin olunacaq istiqrazların həcmini və qiymət əvvəlcədən elan olunmadığı təqdirdə (dolayı hərrac zamanı), onların minimal qiymətini (kəsmə qiymətini) müəyyənləşdirir və Birjanın ticarət reqlamentinə müvafiq olaraq əqdlərin bağlanılması mərhələsində birja üzvü (anderrayter) vasitəsi ilə ticarət sisteminə satış (geriyə satış hərracı zamanı alış) sifarişi daxil edir.

52.15. Hərrac zamanı təqdim edilmiş sifarişlərin ümumi həcmi yerləşdiriləcək istiqrazların həcmindən artıq olduqda, eyni qiymətlə təqdim edilmiş sifarişlər emissiya prospektinə müvafiq olaraq mütənasiblik qaydasında və ya bu sifarişlərin təqdim edilməsi vaxtına görə icra edilir.

52.16. Sifarişlərin icra edilməsi qiymətli kağızları hərraca çıxaran birja üzvü (anderrayter) ilə hərrac iştirakçıları olan birja üzvləri arasında alqı-satqı əqdinin bağlanılması hesab edilir.

52.17. Mərkəzi depozitar yerləşdirilən qiymətli kağızlar üzrə toplanmış pul vəsaitlərini və alınmış qiymətli kağızları (dövlət qiymətli kağızlarının yerləşdirilməsi istisna olmaqla) QKDK tərəfindən emissiyanın və ya kütləvi təklifin yekunları haqqında hesabat dövlət qeydiyyatına alınanadək qanunvericiliyə müvafiq olaraq dondurur.

**53. Dövlət qiymətli kağızlarının yerləşdirilməsi**

53.1. Notların, dövlət və bələdiyyə istiqrazlarının kütləvi təklif üsulu ilə Birjada yerləşdirilməsi bu Qaydaların 52-ci bəndinin müddəalarına əsasən hərrac qaydasında təşkil olunur.

53.2. Hərrac bitdikdən sonra hərrac iştirakçıları ilə istiqrazlar üzrə bağlanılmış əqdlərin reyestri Birja tərəfindən emitentə və Mərkəzi Depozitara, əqdlər reyestrindən çıxarışlar isə hərrac iştirakçılarına elektron şəkildə ticarət sistemi vasitəsi ilə təqdim olunur.

53.3. Fond birjasında bağlanılmış əqdlər reyestrindən çıxarış hərrac iştirakçısı və emitent arasında notlar, dövlət və bələdiyyə istiqrazları üzrə alqı-satqı müqaviləsinin bağlanmasının təsdiqidir.

53.4. Emtent qismində Azərbaycan Respublikasının Mərkəzi Bankı və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi çıxış etdikdə, Birja sifarişlərin qəbul edilməsi müddəti ərzində təqdim olunmuş sifarişlərin reyestrini müstəsna olaraq Emitentə təqdim edə və ya onun ticarət sistemi vasitəsi ilə bu məlumata çıxışını təmin edə bilər.

**54. Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən repo və Əks-repo əməliyyatları üzrə hərracların keçirilməsi**

54.1. Mərkəzi bank tərəfindən bu Qaydaların 40.5.1.-ci bəndində nəzərdə tutulmuş Repo və Əks-repo əməliyyatları üzrə hərracların keçirilməsi bu Qaydaların 52-ci və 53-cü bəndlərinin

müddəalarına əsasən hərrac qaydasında təşkil olunur.

**55. Geriyə satış hərracı**

55.1. Geriyə satış hərracı bu Qaydaların 52-ci bəndinin müddəalarına əsasən Birjada ticarətə buraxılmış və yerləşdirilmiş qiymətli kağızlar üzrə təşkil olunur.

55.2. Geriyə satış hərracı zamanı qiymətli kağızların alıcısı qismində birja üzvü vasitəsi ilə bu qiymətli kağızların Emitenti çıxış edir.

**56. Törəmə maliyyə alətlərinin yerləşdirilməsi (ilk dəfə ticarətə buraxılması)**

56.1. Törəmə maliyyə alətlərinin yerləşdirilməsi (ilk dəfə ticarətə buraxılması) Birja tərəfindən törəmə maliyyə alətinin standartlaşdırılmış forması əsasında həyata keçirilir.

56.2. Törəmə maliyyə alətlərinin standartlaşdırılmış formasında aşağıdakı məlumatlar qeyd olunur:
56.2.1. Baza aktivi;
56.2.2. Törəmə maliyyə alətinin növü;
56.2.3. Törəmə maliyyə alətinin dəyəri (olduqda);
56.2.4. Müqavilənin tədavül müddəti (ilk və son gün);
56.2.5. Müqavilənin icra günü (olduqda);
56.2.6. Müqavilənin icra üsulu (baza aktivinin çatdırılması və ya qarşılıqlı hesablaşmalar);
56.2.7. Qiymətin müəyyən edilməsi üsulu;
56.2.8. Qiymət addımı;
56.2.9. Lot ölçüsü;
56.2.10. Qiymət dəhlizi;
56.2.11. İlkin marjanın məbləği;
56.2.12. Opsionlar üçün baza aktivini almaq və ya satmaq hüququnun istifadə edilməsi zamanı baza aktivinin qiyməti (opsion üçün);
56.2.13. Opsionun növü (opsion üzrə verilən hüququ tədavül müddəti ərzində və ya tədavül müddətinin sonunda istifadə etmək imkanı);
56.2.14. Opsionun sinfi (opsion üzrə verilən satmaq və ya almaq hüququ);

56.3. Törəmə maliyyə alətlərinin standartlaşdırılmış forması QKDK tərəfindən təsdiq edildikdən sonra, Birja sözügedən törəmə maliyyə alətləri ilə ticarəti təşkil edir.

56.4. Törəmə maliyyə alətinin standartlaşdırılmış formasına Birja tərəfindən dəyişikliklər edilə bilər. Törəmə maliyyə alətinin standartlaşdırılmış formasına edilmiş dəyişikliklər QKDK tərəfindən təsdiq edildikdən və Birjanın internet səhifəsində açıqlandıqdan sonra növbəti iş günündən tez olmayaraq qüvvəyə minir.

**57. Qiymətli kağızların qapalı yerləşdirmə üsulu ilə yerləşdirilməsi**

57.1. Qiymətli kağızların qapalı yerləşdirmə üsulu ilə yerləşdirilməsi bu Qaydaların 29-cu bəndinin müddəalarına əsasən ünvanlı əqdlərin bağlanılması qaydasında təşkil olunur.

**Maddə 12**
**MARJA İLƏ TİCARƏT**

**58. Marja ilə ticarət üzrə ümumi müddəalar**

58.1. Marja ilə ticarət fasiləsiz ticarət fazası ərzində Birjanın ticarət reqlamenti ilə müəyyən edilmiş bazarlar və vaxt ərzində birja üzvləri vasitəsi ilə təşkil olunur.

58.2. Marja ilə ticarət bu Qaydalara müvafiq olaraq qiymətli kağızların yerləşdirlməsinə və repo əməliyyatlarına şamil edilmir.

58.3. Birja üzvü hər hansı müştəridən əldə etdiyi vəsaitləri digər müştərilər üçün marja əməliyyatları aparmaq və ya öz məqsədləri üçün istifadə etməməlidir.

58.4. Birja üzvü müştərilər üzrə marja əməliyyatlarını bu məqsədlə hər bir müştəri üzrə klirinq təşkilatında açılmış fərdi marja hesabından həyata keçirməlidir.

**59. Marja ilə ticarət oluna bilən baza aktivləri**

59.1. Aşağıdakı tələblərə cavab verən qiymətli kağızlar marja ticarətinin baza aktivi kimi qəbul edilə bilər:
59.1.1. Qiymətli kağızların altı aydan çox müddətdə listinqdə olması;
59.1.2. Ticarət olunan qiymətli kağızların sayının 10000-dən (on min) çox olması;
59.1.3. Qiymətli kağızların son altı ay ərzində ticarət həcminin, orta aylıq ticarət həcminə (bazarda cəmi ticarət həcminin müvafiq ayların sayına bölünməsi) bərabər və ya ondan çox olması;
59.1.4. Ticarətin günlərinin sayının həmin qiymətli kağızların Birjada listinqdə olan ticarət günlərinin sayının 80%-nə və ya daha çox hissəsinə bərabər olması;
59.1.5. Qiymətli kağızların delistinq prosesində olmaması.
59.1.6. Riskli qiymətli kağız kimi təyin olunmaması;
59.1.7. Qiymətli kağızların marketmeykerinin olması.

59.2. Baza aktivi baza aktivlərinin qiyməti, gəlirliliyi, məzənnə fərqi və ya risk dərəcəsinin dəyişiklikləri olan törəmə maliyyə alətləri ilə marja ticarəti bu alət üzrə birja üzvünün müraciəti əsasında, ən azı bir marketmeykerin (likvidlik təminatçısının) iştirakı ilə təşkil olunur.

**60. Marja ticarəti üzrə hədlər**

60.1. Marja ticarətinin baza aktivi kimi qiymətli kağızlar qəbul edildikdə marja həddi aşağıdakı qaydada müəyyən edilir:

60.1.1. İlkin marja baza aktivinin cari bazar dəyərinin minimum 40 (qırx) faizi həcmində olmalıdır;
60.1.2. Marja ticarəti ilə əldə edilmiş baza aktivi üzrə təminat marjası son ticarət günü üçün yekun qiymətin minimum 20 (iyirmi) faizi həcmində olmalı və yalnız pul vəsaiti ilə ödənilməlidir.

60.2. Baza aktivlərinin qiyməti, gəlirliliyi, məzənnə fərqi və ya risk dərəcəsinin dəyişiklikləri ilə marja ticarəti üzrə marja həddi QKDK ilə razılaşdırılmaqla Birjanın İdarə Heyəti tərəfindən müəyyən olunur.

60.3. Təminat marjası Birja tərəfindən müəyyən olunmuş minimal həddən aşağı düşdükdə, bu xidmətləri göstərən birja üzvü dərhal marja çağırışını etməlidir.

60.4. Marja çağırışı edilən müştəriyə bu xidmətləri göstərən birja üzvü tərəfindən baza aktivlərinin bazar qiymətlərində yüksəlməyə görə əlavə marja və ya vəsait verilə bilməz.

**61. Marja ticarəti üzrə məlumatların açıqlanması**

61.1. Birja marja ilə ticarətin təşkil olunduğu bazarlar üzrə bu Qaydaların 59.1.-ci və 59.2.-ci bəndlərinin tələblərinə uyğun gələn alətlərin siyahısını və bu qaydaların 60.2.-ci bəndi üzrə marja hədləri barədə məlumatı özünün internet səhifəsi vasitə ilə açıqlayır.

## Maddə 13
## BİRJADA BAĞLANILMIŞ ƏQDLƏR ÜZRƏ HESABLAŞMALARIN KEÇİRİLMƏSİ VƏ BİRJADA BAĞLANILMIŞ ƏQDLƏRİN LƏĞV EDİLMƏSİ

**62. Birjada bağlanılmış əqdlər üzrə hesablaşmaların keçirilməsi**

62.1. Birjada bağlanılmış əqdlər üzər hesablaşmalar Ödənişə Qarşı Çatdırılma (ÖQÇ) prinsipi əsasında, Birja ilə hesablaşma-klirinq xidmətlərinin göstərilməsinə dair müqavilə imzalamış qanunvericiliyə müvafiq olaraq fəaliyyət göstərən klirinq təşkilatı tərəfindən həyata keçirilir.

62.2. Qiymətli kağızlarla ticarətin təşkili zamanı, klirinq təşkilatının bu qiymətli kağızların saxlanıldığı depozitar təşkilatına çıxışı olmalıdır.

62.3. Birja klirinq təşkilatı ilə hesablaşma-klirinq xidmətlərinin göstərilməsinə dair müqavilə imzalayır. Müqavilədə ən azı aşağıdakı müddəalar əks olunur:
62.3.1. Birjada bağlanılmış əqdlər üzrə hesablaşmaların tamamlanması müddəti;
62.3.2. Birjada bağlanılmış əqdlərin təmin edilməsi (tamamlanması) qaydası;
62.3.3. Birja üzvləri üzrə ticarət limitlərinin müəyyən olunması;
62.3.4. Məlumatların qorunması və təhlükəsizliyi şərtləri.

62.4. Birja ilə kliring təşkilatı arasında məlumat mübadiləsi elektron formada təşkil edilir.

### 63. Birjada bağlanılmış əqdlərin ləğv edilməsi

63.1. Birjada bağlanılmış əqdlər qanunvericiliyə müvafiq olaraq ləğv olunur.

## Maddə 14
## TİCARƏT SİMVOLLARI

### 64. Ticarət simvollarının verilməsi

64.1. Birjada ticarətə buraxılan hər bir qiymətli kağız və törəmə maliyyə alətinə fərdi ticarət simvolu verilir.

64.2. Hər bir ticarət simvolu unikaldır və təkrarlanmır.

64.3. Ticarət simvolu qiymətli kağız və ya törəmə maliyyə alətinin buraxılış şərtlərindən və emitentindən asılı olaraq hərflər və rəqəmlərdən ibarət ola bilər. Ticarət simvolu yalnız rəqəmlərdən ibarət ola bilməz.

64.4. Birja ticarət simvollarını müstəqil şəkildə qiymətli kağızların və törəmə maliyyə alətlərinin ticarətə buraxılmasında təyin edir. İstisna olaraq, ticarət simvolu qiymətli kağızlar və ya törəmə maliyyə alətləri listinqə daxil edilərkən onların listinqə daxil edilməsi üçün müraciət etmiş şəxsin yazılı müraciəti əsasında bu Qaydalara uyğun şəkildə təyin oluna bilər.

64.5. Ticarət simvolu Birja tərəfindən aşağıdakı qaydada müəyyən olunur:

64.5.1. Dövlət qiymətli kağızları üzrə:

XYZZNN

Burada,
X – Dövlət qiymətli kağızlarını xarakterizə edən şərti simvol (notlar üzrə „N”, qısa müddətli dövlət istiqrazları üzrə „T”, orta müddətli dövlət istiqrazları üzrə „B”, uzun müddətli dövlət istiqrazları üzrə „D”, xüsusi şərtlərlə buraxılmış dövlət istiqrazları üzrə „G”, bələdiyyə istiqrazları üzrə „M” hərfi qeyd olunmalıdır);
Y – Dövlət qiymətli kağızlarının valyutasının baş hərfidir;
ZZ – Dövlət qiymətli kağızlarının buraxıldığı ilin son iki rəqəmidir
NN – Dövlət qiymətli kağızlarının bir ildə buraxılış sırasıdır.
64.5.2. Korporativ istiqrazlar üzrə:

XXXXXYY

Burada,
XXXXX – İstiqrazların emitentini xarakterizə edən ticarət simvoludur;
YY – Korporativ istiqrazın buraxılış sırasıdır.
64.5.3. Səhmlər üzrə:
XXXXX
Burada,
XXXXX – Səhmlərin emitentini xarakterizə edən latın əlifbasının baş hərfi və ya hərf və rəqəm kombinasiyasıdır. Kodun seçilməsi zamanı bütün kodun yalnız rəqəmlərdən ibarət olmasına yol verilmir, kodlaşmada ən azı bir hərf olmalıdır.

64.5.4. Törəmə maliyyə alətləri üzrə:

Baza aktivlərinin qiyməti, gəlirliliyi, məzənnə fərqi və ya risk dərəcəsinin dəyişikliyinin alınıb-satılmasını nəzərdə tutan maliyyə alətləri üzrə təşkil edilmiş marja ticarəti üzrə ticarət simvolu qarşılıqlı olaraq alınıb satılan iki baza aktivinin ticarət simvollarının birləşməsindən ibarət olur.

64.5.5. Digər qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə ticarət simvolu Birjanın İdarə Heyətinin qərarı ilə müəyyən olunur.

**Maddə 15**
**DİGƏR MÜDDƏALAR**

**65. Ticarət haqları**

65.1. Birjada bağlanılmış əqdlərə görə Birjanın müəyyən etdiyi tarif cədvəlinə müvafiq olaraq ticarət haqları tətbiq edilir.

65.2. Ticarət haqları Birja üzvləri tərəfindən Birjaya ödənilir.

65.3. Ticarət haqqının məbləğinin hesablanması qaydası Birjanın İdarə Heyəti tərəfindən müəyyən edilən tarif cədvəlində əks olunur.

65.4. Birja tarif cədvəlini özünün internet səhifəsində açıqlayır.

**66. Hesabatlılıq və məlumatların açıqlanması**

66.1. Bu Qaydalar üzrə hesabatlılıq və məlumatların açıqlanması birjanın məlumatların açıqlanması qaydaları ilə tənzimlənir.

**67. Qaydaların pozulmasına görə məsuliyyət**

67.1. Bu Qaydaların pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyi və Birjanın qaydaları ilə nəzərdə tutulmuş məsuliyyət tədbirləri tətbiq edilir.

<u>**Əlavə №1**</u>

**“Bakı Fond Birjası” QSC-nin**

**Ticarət Reqlamenti**

<table>
<tr><th colspan="5">Təkrar bazar[1]</th><th rowspan="2">Törəmə maliyyə alətləri üzrə ticarət saatları</th></tr>
<tr><th>Ticarət Fazasının adı</th><th>Ticarət üsulu</th><th>Səhmlər üzrə ticarət saatları</th><th>İstiqrazlar üzrə ticarət saatları</th><th>Repo/əks Repo üzrə ticarət saatları</th></tr>
<tr><td>Açılış fazası</td><td>Tarazlaşdırıcı hərrac üsulu</td><td>9:30 - 10:00</td><td>-</td><td>-</td><td rowspan="9">24/7</td></tr>
<tr><td>Fasiləsiz ticarət</td><td>Fasiləsiz ticarət üsulu</td><td>10:00 - 13:00</td><td>10:00 - 13:00</td><td>10:00 - 13:00</td></tr>
<tr><td>Açılış fazası</td><td>Tarazlaşdırıcı hərrac üsulu</td><td>14:00 - 14:15</td><td>-</td><td>-</td></tr>
<tr><td>Fasiləsiz ticarət</td><td>Fasiləsiz ticarət üsulu</td><td>14:15 - 15:45</td><td>14:00 - 16:00</td><td>14:00 - 16:00</td></tr>
<tr><td>Bağlanış fazası</td><td>Tarazlaşdırıcı hərrac üsulu</td><td>15:45 - 16:00</td><td>-</td><td>-</td></tr>
<tr><td colspan="5">Yelərşdirmə[1]</td></tr>
<tr><td>Abunə yazılışı qaydasında</td><td>Fasiləsiz ticarət üsulu</td><td>11:00 - 13:00; 14:00 - 16:00</td><td>11:00-13:00; 14:00-16:00</td><td>-</td></tr>
<tr><td>Hərrac qaydasında</td><td>Tələb qiymətli və ya bir qiymətli hərrac üsulu</td><td>-</td><td>11:00 - 12:30</td><td>-</td></tr>
<tr><td>Qapalı yerləşdirmə</td><td>Fasiləsiz ticarət üsulu</td><td>11:00 - 13:00; 14:00 - 16:00</td><td>11:00 - 13:00; 14:00 - 16:00</td><td>-</td></tr>
</table>

***Qeyd:*** ***[1]Saat 13:00-dan 14:00-dək səhmlər, istiqrazlar, repo/əks repo ticarətləri üzrə fasilə müddətidir. Fasilə müddəti ərzində ticarət əməliyyatları keçirilmir.***

**<u>Əlavə №2</u>**

## MARKETMEYKER FƏALİYƏTİ İLƏ MƏŞĞUL OLMAQ ÜÇÜN MÜRACİƏT FORMASI

*QEYD: Bu forma Market meyker fəaliyyətinin predmeti olan hər bir qiymətli kağız üzrə doldurulmalıdır.*

### A. MARKETMEYKER BARƏDƏ MƏLUMAT

**A1. Ümumi məlumat:**

| | |
|---|---|
| **Tam adı** | |
| **VÖEN** | |

**A2. Ünvan və əlaqə vasitələri:**

| | |
|---|---|
| Hüquqi ünvanı | |
| Faktiki ünvanı | |
| Əlaqələndirici şəxs | |

| | | | | | |
|---|---|---|---|---|---|
| Telefon | | Faks | | Digər | |

**A3. Sahib olduğu investisiya şirkəti fəaliyyəti üçün lisenziya barədə məlumat:**

| Həyata keçirilməsinə icazə verilən əsas və yardımçı investisiya xidmətləri | Verilmə tarixi | Qüvvədə olma tarixi | Kim tərəfindən verilib |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |

**B. ÖHDƏLİKLƏR BARƏDƏ MƏLUMAT**

**B1. Marketmeyker fəaliyyətinin predmeti barədə məlumatlar:**

| | |
|---|---|
| Qiymətli kağızların dövlət qeydiyyat nömrəsi (ISIN)/ törəmə maliyyə aləti barədə məlumat | |
| Emitent/ baza aktivi | |

**B2. Marketmeyker fəaliyyətinin predmeti olan qiymətli kağızlar / törəmə maliyyə alətləri üzrə öhdəliklərin həcmi:**

| | |
|---|---|
| Alış | _________________ədəd / həcm |
| Satış | _________________ədəd / həcm |

**B3. Qiymət dəhlizi:________%**

*Birja tərəfindən hər bir alət üzrə təyin olunmuş minimal və maksimal qiymət həddindən artıq olmamaq şərti ilə*

**B4. Marketmeyker fəaliyyəti zamanı istifadə ediləcək hesab nömrəsi:**

| | |
|---|---|
| Marketmeyker hesabı | |

**B5. Qiymətli kağızların emitenti / baza aktivinin sahibi ilə razılaşmanın olması:**

Razılaşma vardır ☐ Razılaşma yoxdur ☐

**C. SƏLAHİYYƏTLİ TREYDER BARƏDƏ MƏLUMAT**

**C1. Marketmeykerin adından iştirak edəcək səlahiyyətli treyderlər barədə məlumat:**

| **Adı, Soyadı, Atasının adı** | **Şəxsiyyəti təsdiq edən sənəd** | **Sahib olduğu ixtisas şəhadətnaməsi** | | | |
|---|---|---|---|---|---|
| | | **Fəaliyyət növü** | **Seriya, Nömrə** | **Verilmə tarixi** | **Qüvvədə olma tarixi** |
| | | | | | |
| | | | | | |

Xahiş edirik müraciət formasını qəbul edəsiniz

Öhəliklərinin icrasına başlanma tarixi:_________________

Rəhbər:_________________ İmza:__________________ *M.Y.*

**Əlavə №3**

## REPO Şəhadətnaməsi

1. Bu Repo Şəhadətnaməsi Repo Baş Razılaşmaya uyğun olaraq bir tərəfdən, ____________________________________ bundan sonra Repo satıcısı adlandırılan və digər tərəfdən________________________________bundan sonra Repo alıcısı adlandırılan (birlikdə "Tərəflər" adlandırılacaq) arasında Repo Baş Razılaşmasına uyğun olaraq, "Bakı Fond Birjası" QSC-nin Ticarət Sistemində REPO əməliyyatlarının aparılmasını təsdiq edir.

2. Tərəflər __________tarixində REPO əməliyyatını açır (Repo açılış əqdi tarixi), ________________ tarixində isə onu bağlayırlar (Repo bağlanış əqdi tarixi).

3. REPO əməliyyatının şərtləri aşağıdakı kimidir:

| № | Əməliyyatın qeydiyyat nömrəsi | Reponun predmeti | | | Repo faiz dərəcəsi (%) | Repo müddəti (gün) | Qiymət | | Məbləğ | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Qeydiyyat nömrəsi | Emitent | Miqdarı (ədəd) | | | Açılış | Bağlanış | Repo açılış əqdi | Repo bağlanış əqdi |
| | | | | | | | | | | |
| | | | | | | | | Cəmi: | | |

4. Tərəflər REPO açılış və REPO bağlanış əqdlərini, bu REPO Şəhadətnaməsində göstərilmiş qiymətlər üzrə həyata keçirir.

5. Tərəflərin məsuliyyəti:

5.1. Repo satıcısı REPO Şəhadətnaməsində nəzərdə tutulmuş öhdəliklərini REPO əməliyyatını bağlanma tarixində saat 16:00-dək yerinə yetirməlidir;

5.2. Tərəflər REPO əməliyyatı üzrə öhdəliklərinin yerinə yetirilməməsinə görə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

Qeydiyyata alınıb: ________________________
*Ticarət Sessiyasının tarixi*

Əməliyyatçı: ________________________